## Heç bir şərt irəli sürülə bilməz

Ermənistan hərbçimizi dərhal geri qaytarmalıdır



**Ermənistanda Azərbaycan Ordusunun hərbçisinə qarşı uydurma ittihamlarla cinayət işi açılıb.**

Hərbçi Ruslan Pənahov haqqında Ermənistan İstintaq Komitəsi təxribata cəhd, qanunsuz silah-sursat saxlama, irqi və dini dözümsüzlük zəminində adam öldürməyə cəhd maddələri ilə cinayət işi açıb.Verilən məlumata görə, Ruslan Pənahov müstəntiqin qərarı ilə həbs olunub. Hazırda işin detalları aydınlaşdırılır.

(səh.4)



## Məktəblərdə əlavə imtahanların sayı azaldıla bilər

**Orta təhsil müəssisələrində şagirdlərin yorulmaması üçün əlavə imtahanların sayı azaldıla bilər.**

Bunu elm və təhsil naziri Emin Əmrullayev brifinqdə deyib. O bildirib ki, hazırda hansı imtahanların azaldılacağı ilə bağlı konkret bir məlumat yoxdur. "Mən bunu təhsil eksperti olaraq deyirəm. Orta məktəblərdə olan imtahan sayını bir dəfə azaltmışıq, növbəti azaldılma da müzakirə olunur"- deyə o bildirib.


❒ № 40 (6041) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 mart 2024-cü il (cümə)




## Metroda gediş haqları artırılmayacaq

Bu barədə müzakirələr aparılmır

**Bakı metrosunda gediş haqlarının artırılması barədə müzakirələr aparılmır.**

Bunu jurnalistlərin sualına cavab olaraq "Bakı Metropoliteni" QSC-nin rəis müavini Hidayət Məmmədov deyib.

O, həmçinin bu il Bakıya 65 ədəd yeni vaqonların gətiriləcəyini deyib.

"Yeni vaqonların alınması üçün müqavilələr imzalanıb. Onların gətirilməsi üçün işlər görülür. Hədəfimiz 65 yeni vaqonun Bakıya gətirilməsidir. Qatarlar əsasən Rusiyadan sifariş edilir. Ona görə də sanksiyalar səbəbindən vaqonların hədəf sayda çatdırılmasında gecikmələr ola bilər", - Hidayət Məmmədov əlavə edib.



## Cavabımız adekvat olmalıdır

Yaranmış yeni reallığı Avropa Şurası və onun təsisatları qəbul etməlidirlər

**Avropa Parlamenti xarici, eləcə də Avropa Birliyinin təhlükəsizlik və müdafiə siyasəti ilə bağlı 2 qətnamə qəbul edib.**

Onların hər biri Azərbaycana qarşı dərhal sanksiyaların tətbiq edilməsini və strateji enerji tərəfdaşlığına dair anlaşma memorandumunun dayandırılmasını tələb edir. Qətnamələrdə Azərbaycanın hərbi-siyasi rəhbərliyinə qarşı şəxsi sanksiyaların tətbiqinə hazırlıq görülməsi, Ermənistana qarşı istənilən "hərbi təcavüz" olacağı təqdirdə Bakıdan neft və qaz idxalının dayandırılması tələb olunur.

Sənədlərdə eyni zamanda AB-nin İrəvandakı missiyasının mandatının gücləndirilməsi, onun genişləndirilməsi, qüvvədə olma müddətinin uzadılması və Türkiyə ilə sərhəddə müşahidəçilərin yerləşdirilməsi zərurətindən də bəhs edilir.

(səh.2)

## Qarabağ Universitetində müəllimlərin maaşı yüksək olacaq

"Yalnız bu halda istedadlı adamları ora apara bilərik"



**Qarabağ Universitetində müəllimlərin maaşları ortalamadan yüksək olacaq.**

Bunu elm və təhsil naziri Emin Əmrullayev brifinqdə deyib.

O bildirib ki, Qarabağ Universitetində əməkhaqlarının orta göstəricidən bir neçə dəfə yüksək olması nəzərdə tutulur:

"Çünki yalnız bu halda istedadlı adamları ora apara bilərik. Vakansiyalara gəldikdə isə bu tamamilə şəffaf proses olacaq. Xaricdə təhsil alan təhsil işçilərinin Azərbaycana, Qarabağa qayıtması bizim əsas hədəflərimizdəndir".

# Berlin görüşündən ciddi nəticə gözlənilmir

Ermənistan sülh danışıqlarının beynəlxalq gündəmdən çıxmamasına çalışır







**Dünən Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında Berlində görüş keçirildi. Nazirlər arasında əvvəlcə ikitərəfli görüş baş tutdu. Görüş daha sonra Almaniyanın xarici işlər naziri Annalena Berbokun iştirakı ilə üçtərəfli formatda davam etdirildi. Bundan başqa, almaniyalı nazir azərbaycanlı və erməni həmkarları ilə ayrı-ayrılıqda ikitərəfli görüşlər də keçirib.** Fevralın 29-da isə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında sülh müqaviləsi layihəsi üzrə danışıqların ikinci raundu baş tutub və müzakirələr davam etdirilib. Almaniyanın xarici işlər naziri Annalena Berbok hər iki ölkənin cəsarətli addımlar atdığını söyləyib. Nazir əlavə edib ki, Azərbaycan və Ermənistan liderləri qalan problemlərin sülh yolu ilə həllinə razılaşıblar...

(səh.4)

# Elektron reseptin vətəndaşa xeyri olacaq

Bunun üçün apteklərin də sistemə qoşulması lazımdır



**Elektron resept kağız dövriyyəsini aradan qaldıracaq və həkimlər vətəndaşlara elektronlaşdırılmış, daha operativ şəkildə xidmət göstərəcəklər.**

Eyni zamanda elektron resept vətəndaşların tibbi məlumatlarına əlçatanlığını, tibb mütəxəssislərinin daha effektiv xidmət göstərməsini və dərman dövriyyəsinə nəzarətin gücləndirilməsini təmin edir. Bu barədə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin şöbə müdiri Səid Fərzullayev danışıb.

(səh.3)



## Azərbaycanda elektromobillərin istifadəsi üzrə sıçrayış baş verəcək

**Azərbaycanda elektrik avtonəqliyyat vasitələrinin istifadəsi sahəsində sıçrayış baş verəcək.**

"APA-Economics" xəbər verir ki, bunu Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Bərpa olunan enerji mənbələri ərazilərinin inkişafı şöbəsinin müdir müavini Sahib Xəlilov "Caspian Energy Club" tərəfindən təşkil olunan "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda "Caspian Energy Meet Up" zamanı bildirib.

Onun sözlərinə görə, cari il ərzində ölkədə elektromobillıklə bağlı geniş proqram təstiq olunacaq. Onun fikrincə, 2025-ci ildən sonra Azərbaycanda elektrik avtomobillərin istifadəsi sahəsində sıçrayış geniş miqyasda baş verəcək.

## 200 məktəbdə smartfon telefonlar qadağandır

Növbəti illərdə bu məktəblərin sayı artırılacaq



**Hazırda 200-dən artıq məktəbdə smartfon telefonlar qadağandır.**

Bu barədə elm və təhsil naziri Emin Əmrullayev media üçün keçirilən brifinqdə çıxışı zamanı deyib.

"Növbəti illərdə bu məktəblərin sayı artırılacaq. Əvvəl məktəblərdə olan davalarla indikilər arasında tək fərq odur ki, əvvəl telefon istifadə edilmirdi. İndi isə dərhal hadisə çəkilir, sosial şəbəkədə yayılır.

Hazırda şagird davranışı qaydalarının pilot şəklində tətbiq edildiyi məktəblərdə smartfonlardan istifadə qadağandır. Bəzi hadisələr məhz məktəbdənkənar baş verir və cibində mobil telefon olan şəxslər də bunu çəkir, qarşısını ala bilmərik", - deyə nazir bildirib.

## Bəzi təcridxanalarda sıxlıq müşahidə olunur

Kompleks tədbirlər problemin qarşısının alınmasında köməklik göstərəcək



**İstintaq təcridxanalarında və bəzi cəzaçəkmə müəssisələrində mövcud normadan artıq şəxsin saxlanıldığı halları müşahidə edilib.**

Bu, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb. Məruzədə qeyd olunub ki, penitensiar müəssisələrdə müəyyən edilən əsas problemlərdən biri də sıxlıqla bağlı olub.

(səh.7)



## Məmurlar vətəndaşların mülkiyyət hüququnu pozur

7-8-i həbs olundu, təəssüflər olsun ki, bəs etmir, bu yolu davam etdirirlər

(səh.2)



## Ukraynada savaş bitənə qədər Saakaşvili azad olunmayacaq

Gürcüstan rəhbərliyi Putinin şəxsi düşmənini azadlığa buraxmağa risk etməz

(səh.6)



BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsinin, eləcə də Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin geniş əməkdaşlıq imkanları yaratdığı qeyd olunub.

Qarşı tərəf Azərbaycanla Ermənistan arasında sülh prosesinin perspektivləri, aparılmış sonuncu danışıqlar barədə məlumatlandırılıb, ölkəmizin sülh sazişi layihəsi üzrə baxışları, Ermənistanla münasibətlərin və sülhün təsis edilməsi üçün vacib əhəmiyyət kəsb edən məqamlar diqqətə çatdırılıb.

Prosesin irəlilədilməsi istiqamətində görüşlərin təşkilində dəstəyə görə Almaniya tərəfinə təşəkkür ifadə olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov Almaniyanın dövlət katibi ilə görüşüb

## Nazir: “Avropa platformalarında aparılan qarayaxma kampaniyası Azərbaycan üçün qəbuledilməzdir”

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyaya işgüzar səfəri çərçivəsində Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin dövlət katibi Tomas Bager ilə görüşüb.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, görüş zamanı ikitərəfli əməkdaşlıq məsələləri, eləcə də Berlində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında aparılmış sonuncu danışıqlar barədə fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycanla Almaniya arasında münasibətlərin əhəmiyyətini vurğulayıb, münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıblar. Bununla yanaşı, Avropa Şurası Parlament Assambleyası, Avropa İttifaqı və digər platformalar çərçivəsində ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasının qəbuledilməz olduğu Azərbaycan tərəfindən bildirilib.

# Məmurlar vətəndaşların mülkiyyət hüququnu pozur

## 7-8-i həbs olundu, təəssüflər olsun ki, bəs etmir, bu yolu davam etdirirlər

**Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib. Komitə üzvləri İnsan hüquqları üzrə müvəkkilin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsini təqdim ediblər. İllik məruzə, eyni zamanda Nazirlər Kabinetinə, Konstitusiya Məhkəməsinə, Ali Məhkəməyə və Baş prokurora göndərilib.**



Məruzədə Ombudsmanın insan hüquqları pozuntularının qarşısının alınması sahəsində fəaliyyəti, hüquqi maarifləndirmə və elmi-analitik işin nəticələri, ictimaiyyətlə və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı öz əksini tapıb. Məruzə Milli Məclisdə dinlənildikdən sonra geniş ictimaiyyətin tanış olması üçün mətbuat orqanlarında dərc ediləcək.

**“Ombudsmana qanunvericilik təşəbbüsü hüququ verilsin”**

**Millət vəkili Tahir Kərimli İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsmana) qanunvericilik təşəbbüsü hüququnun verilməsini təklif edib.** Deputat bildirib ki, bunun üçün təbii ki, qanunvericilikdə dəyişiklik edilməlidir. Gələcəkdə bu məsələyə baxıla bilər. T.Kərimli narkotik istifadəçilərinin həbs olunmamasını da təklif edib: ”Narkotik istifadəçilərinin çoxu çöldə qalır, bəziləri isə cəza çəkir. Burada müəyyən ədalətsizlik yaranır. Bu gün cəzaçəkmə müəssisələrinin yarısından çoxu narkotik istifadəçiləridir. Sonra narkomanların adına məhkumluq yaranır ki, bu da onların gələcək işində, həyatında problemlər yaradır. Düşünürəm ki, ümumiyyətlə, bu cür şəxslər həbs olunmamalıdır. Onlar məhkumluqdansa, müalicəyə yönləndirilməlidir. Bundan sonra həmin insanlar cəmiyyətə qaytarılmalıdır”.

**Millət vəkili Naqif Həmzəyev bildirib ki, vətəndaşların mülkiyyət hüququ məmurlar tərəfindən pozulur:** ”Məsələn, keçmiş icra başçısının sərəncamı əsasında torpaqlar verilib, yeni başçı və yaxud məmur baxır ki, bu torpaq istifadəsizdir, ya onun sahibi xaricdə olduğu üçün istifadə etmir. Vətəndaşların hüquqları bu məsələdə pozulmalı deyil. Bu, istər-istəməz vətəndaşları bizə qarşı soyudur. Bu məsələləri lazımi dairələrə çatdırmaq lazımdır ki, məmurlar qorxub çəkinsinlər. 7-8-i həbs olundu, təəssüflər olsun ki, bəs etmir, bu yolu davam etdirirlər. Bu bizə yaraşmır, dəyişməliyik”.

**“Ölkədə əsas problem məhkəmə ilə bağlıdır”**

**Millət vəkili Fazil Mustafa deyib ki, elə məhkəmə qərarı olur ki, bunun icrası ”2x2”dir, amma yubadılır. Onun sözlərinə görə, məhkəmənin dostu institutunun yaradılması təklifi məhkəmə qərarlarına da şamil edilsə, yaxşı olar:** ”Çünki bəzən elə məhkəmə qərarı olur ki, bunun icrası ”2x2”dir. Misal olaraq, məhkəmə qərar qəbul edib, amma məhkəmə icraçısı bunu həll etməyə maraqlı deyil. Yüzlərlə belə fakt olub ki, biz zəng edib məcbur etmişik. Sənin nə marağın ola bilər?! Yaxud da qərarın icrasını təmin etmək qarşı tərəfin məsələni uzatması üçün müəyyən imkanları geniş olanda məhkəmə qərarının icrasına maneə törətmək vəziyyəti yaranır. Buna da hansısa formada Ombudsmanın müdaxilə etmək imkanı vacibdir. Çünki ölkədə əsas problem məhkəmə ilə bağlıdır. Məhkəmə qərarı icra olunmayan bir ölkədə heç nəyin ədalətli olmadığını müzakirə etməyə ehtiyac yoxdur. Odur ki, ilk növbədə bu məsələ həll olunmalıdır”.

**“Onlar Azərbaycan səngərlərini qorumalıykən Ukrayna müharibəsində iştirak edirlər”**

**Deputat Zahid Oruc deyib ki, nə qədər oğullarımız Azərbaycan səngərlərini qorumalıykən Ukrayna müharibəsində iştirak üçün gedir və sonra tabutları gəlir:** ”Bu sanki həyatımızın ayrılmaz hissəsinə çevrilir və qəbul olunur. Suriyada terror birləşmələrinin tərkibində vuruşmaq cinayət hadisəsi hesab edilir, çünki bu, terror birləşməsidir. Ancaq nizami dövlət birləşmələrinin silahlı qüvvələrində olmaq cinayət yaratmır. Hesab edirəm ki, bu məsələdə peşəkar hüquq müdafiəçilərinin rəyi önəmli olar”.

**İsmayıl**

# Qərb sözünü tutmadı, müharibə genişlənə bilər

## Hadisələr Qərb və Rusiya qarşıdurmasının yaranmasına gətirib çıxaracaq

**Rusiya Prezidenti Vladimir Putin NATO-ya qarşı hərbi təcavüzün hazırlıqlarına başlayıb.**

**Bu barədə ABŞ-nin Müharibənin Öyrənilməsi İnstitutunun hesabatında qeyd olunub.**



Putinin 26 fevralda verdiyi iki fərmana əsasən, Qərb Hərb Dairəsi ləğv olunur, əvəzində isə Moskva və Leninqrad Hərbi dairələri yaradılır.

”Əvvəllər Qərb Hərbi Dairəsi Rusiyanın Ukrayna, Belarus və Baltikyanı ölkələrlə sərhədini əhatə edirdi. Onun strateji vəzifələrinə müharibə başlayandan sonra Rusiya Silahlı Qüvvələrinin Ukraynadakı əməliyyatlarına nəzarət, habelə NATO ilə mümkün qarşıdurmaya hazırlıq daxil idi. İndi isə Leninqrad Hərbi Dairəsi NATO-nun şimal-şərq sərhədi, Moskva Hərbi Dairəsi isə Ukrayna və Polşanın şimal-şərq hissəsi boyunca yerləşəcək. Bu, Moskvaya eyni vaxtda NATO-ya qarşı mövqe tutmağa və Ukraynada hərbi əməliyyatlara komandanlıq və nəzarəti sadələşdirməyə imkan verəcək”, - hesabatda bildirilib.

İnstitutun analitikləri qeyd edir ki, Putin Finlandiyanın 2023-cü ildə NATO-ya qəbulundan sonra Leninqrad Hərbi Dairəsinin yaradılmasının vacibliyindən danışmışdı:

”Leninqrad və Moskva Hərbi dairələrinin bərpası qısa və ortamüddətli perspektivdə Rusiyanın Ukraynadakı əməliyyatları üzərində nəzarəti gücləndirmək və uzunmüddətli perspektivdə NATO-ya qarşı genişmiqyaslı konvensional müharibəyə hazırlaşmaq kimi paralel məqsədlərə cavab verir”.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan tanınmış jurnalist, politoloq Fuad Abbasov söyləyib ki, Putinin NATO ilə bağlı aldığı qərarlar Stalin və Hitler arasında imzalanmış Molotov-Ribbentrop müqaviləsinin ləğv olunmasını xatırladır:** ”Həmin dönəmdə heç kim hücum etməmək paktından sonra Almaniyanın Sovet İttifaqına hücum etməsini gözləmirdi. Amma hücum reallaşdı və Almaniya məğlub oldu. Ümumiyyətlə, həmin savaş olduğu zamanlar Stalinin müharibəyə daha çox maraqlı olduğunu vurğulayırdılar. Nəticə etibarilə Almaniyanın Sovet İttifaqına hücum etməsi Stalinin planlarını həyata keçirmiş oldu. Bu gün də Rusiyanın Ukraynada müharibə başlatmasının başlıca səbəbi Qorbaçovun dövründə NATO və Amerika daxil olmaqla Qərb tərəfindən Rusiyaya verilən sözlərin tutulmamasının qarşılığıdır. Putinin dediyinə görə, Qərb Rusiyaya NATO-nun genişlənməyəcəyi ilə bağlı söz verib, amma tutmayıb. Əgər doğrudan da, Qərb Rusiyaya qarşı vahid cəbhə meydana gətirsə, mütləq şəkildə Şimal qonşumuz buna ən sərt şəkildə cavab verəcək. Bu isə Ukrayna müharibəsinin genişlənərək Qərb və Rusiya qarşıdurmasının yaranmasına çıxaracaq”.

**F.Abbasov həmçinin qeyd edib ki, vaxtilə nüvə başlıqlarını Kubaya yerləşdirən Sovet İttifaqı Amerika ilə müharibə edəcək səviyyəyə gəlmişdi:** ”İndi də Rusiyanın Kubayla ciddi şəkildə yaxınlaşdığı görünür. Yəni Rusiya yenə nüvə başlıqlarını Kubada yerləşdirməklə Amerikaya qarşı istifadə edə bilər. Eyni zamanda Rusiya Venesuela ilə Çar dövründən bu yana yüksək əlaqələr qurub. Rusiyanın Venesuela torpaqlarından Amerikaya qarşı istifadə etmək şansı var. Bütün bunlar isə Rusiyanın Sovet İttifaqının dağılmasından sonra itirdiyi məğlubiyyəti bərba etməsi üçün atdığı real addımlardır”.

**Şahanə Ziyad**

# Netanyahu Prezident İlham Əliyevi təbrik edib

## “Bizim əməkdaşlığımız bir çox sahələrdə genişlənib və yeni zirvələrə yüksəlib”

**İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**



*Məktubda deyilir:*

”Hörmətli cənab Prezident.

Bu yaxınlarda yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İsrail xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Onilliklər ərzində xalqlarımız ortaq məqsəd və maraqlara əsaslanan isti münasibətlərə malik olublar. Siz iyirmi il əvvəl prezidentliyə başladığınız vaxtdan bizim əməkdaşlığımız bir çox sahələrdə genişlənib və yeni zirvələrə yüksəlib.

Keçən il Azərbaycanın İsraildə səfirliyinin tarixi açılışında aydın şəkildə nümayiş etdirilən dostluq münasibətinə görə təşəkkür edirəm.

Qarşıdakı illərdə tərəfdaşlığımızı daha da inkişaf etdirmək üçün Sizinlə yaxından işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm”.

**Müəyyən xarici media resurslarında ”Ermənistana təhdid olan Azərbaycan” haqda təbliğat, anti-Azərbaycan isterikası genişləndirilir. Təbliğat maşını tam sürətilə hərəkətə keçib.**



Məqsəd ictimai rəyi planlaşdırdıqları təxribata hazırlamaqdır. Onlar öz çirkin məqsədinə don geyindirməyə çalışaraq

# Hədəf gün kimi aydındır

## Ermənistanın silahlandırılmasını Fransa öz üzərinə götürüb

Azərbaycanı Ermənistana qarşı ”müharibəyə hazırlaşmaqda” ittiham edirlər. Bu dəfə Fransa Qərbin ”qanlı ssenarisi”ni reallaşdırmağa imza atıb. Müharibə üçün Ermənistanda və xaricdəki bütün revanşist qüvvələrin səylərini birləşdirmək tələb olunur. Emmanuel Makron Paşinyanın Parisə son səfəri zamanı onu Fransa Erməni Təşkilatlarının Koordinasiya Şurasının həmsədri Murad Papazyanla bir araya gətirib. Fransa daşnaklar və revanşist qüvvələrlə Paşinyanı ”barışdırmağa” çalışır.

> “Azərbaycan Ermənistana qarşı müharibəyə hazırlaşır” kimi ittihamlar ondan xəbər verir ki, Qərbin ayrı-ayrı mərkəzləri Ermənistanla birlikdə müəyyən təxribat hazırlığındadır”

**Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov ”Şərq”ə deyib ki, müharibəyə hazırlıq istiqamətində əsas addım Ermənistanın silahlandırılmasıdır. Onun sözlərinə görə, hazırda Fransa bu prosesi öz üzərinə götürüb:** ”Fransa və Hindistanda Fransa lisenziyası ilə istehsal olunan silahlar Ermənistana ötürülür. Fransız hərbçiləri Ermənistan piyada və dağatıcı bölmələrinə təlimlər keçirlər. Hədəf isə gün kimi aydındır - Ermənistanın qəfil hücumla şərti sərhəddə bir neçə yüksəkliyi ələ keçirməsi. ”Azərbaycan hücuma hazırlaşır” təbliğatını aparan Qərb Azərbaycan ordusunun Zəngilan istiqamətindəki mövqelərinin atəşə tutulmasını, hərbçimizin yaralanmasını, şərti sərhəddə atəşkəsin davamlı pozulmasını, Naxçıvan istiqamətində təxribatlara əl atılmasını görməzlikdən, eşitməzlikdən gəlir. Yenə lal, kar, kor olublar, çünki işlərinə yarayır”.

**Analitik vurğulayıb ki, Fransa və Ermənistan dövlət təhlükəsizlik nazirləri arasında gizli anlaşma olub:** ”Anlaşmaya görə, Ermənistan Fransaya, Fransa isə Ermənistana informasiya mübadiləsi aparacaq. Fransa kosmik sahədə inkişafından istifadə edərək kosmosdan Azərbaycan hərbçilərinin, hərbi texnikamızın istiqamətləri, mövqeləri ilə bağlı Ermənistandakı həmkarlarını məlumatlandıra bilər. Təhlükəsizlik məsələsindən başqa, hərbi-texniki əməkdaşlığı da biz xüsusilə vurğulamalıyıq. Həm hücum xarakterli, həm müdafiə xarakterli silahların göndərilməsi, fransız generalın Ermənistanda peyda olması və Qərbin müxtəlif media orqanlarında ”Azərbaycan Ermənistana qarşı müharibəyə hazırlaşır” kimi məsələ ondan xəbər verir ki, Qərbin ayrı-ayrı mərkəzləri Ermənistanla birlikdə müəyyən təxribat hazırlığındadır. Ermənistan Baş naziri N.Paşinyan revanş edərək müəyyən bir ərazidə erməni hərbçilərini irəlilətmək niyyətində ola bilər”.

**İsmayıl Qocayev**

**Xocalıda aşkar edilmiş kütləvi məzarlıqdan daha bir azyaşlının qalıqları çıxarılıb. Bu barədə Baş Prokurorluğun mətbuat xidməti məlumat yayıb.**




Xəbər verildiyi kimi işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində

# Xocalıda kütləvi məzarlıqdan daha bir azyaşlının qalıqları çıxarılıb

aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması faktı ilə bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır.

Qeyd olunan ərazidə davam edən baxış istintaq hərəkəti nəticəsində bu gün daha bir azyaşlıya aid insan qalıqları aşkar edilmiş, bununla da, kütləvi məzarlıqda basdırılan insan qalıqlarının ən azı 5 nəfər şəxsə (onlardan 2 nəfərin azyaşlı olması ehtimal edilir) məxsus olması, onların qeyri-insani rəftara və fiziki zorakılığa məruz qalması müəyyən edilib.

Hazırda ərazidə basdırılmış insan qalıqlarının tam müəyyən olunması istiqamətində hadisə yerinin müayinəsi davam etdirilir.

Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.



# Cavabımız adekvat olmalıdır

## Yaranmış yeni reallığı Avropa Şurası və onun təsisatları qəbul etməlidirlər

**Avropa Parlamenti xarici, eləcə də Avropa Birliyinin təhlükəsizlik və müdafiə siyasəti ilə bağlı 2 qətnamə qəbul edib. Onların hər biri Azərbaycana qarşı dərhal sanksiyaların tətbiq edilməsini və strateji enerji tərəfdaşlığına dair anlaşma memorandumunun dayandırılmasını tələb edir. Qətnamələrdə Azərbaycanın hərbi-siyasi rəhbərliyinə qarşı şəxsi sanksiyaların tətbiqinə hazırlıq görülməsi, Ermənistana qarşı istənilən "hərbi təcavüz" olacağı təqdirdə Bakıdan neft və qaz idxalının dayandırılması tələb olunur.**

Sənədlərdə eyni zamanda AB-nin İrəvandakı missiyasının mandatının gücləndirilməsi, onun genişləndirilməsi, qüvvədə olma müddətinin uzadılması və Türkiyə ilə sərhəddə müşahidəçilərin yerləşdirilməsi zərurətindən də bəhs edilir. Həmçinin Azərbaycanla yeni tərəfdaşlıq sazişi üzrə danışıqların dayandırılmasından bəhs olunur. Göründüyü kimi, Avropa Parlamenti ikili standartlara və qərəzli açıqlamalara əsaslanan fəaliyyətini davam etdirir. Avropa Parlamentinin sonuncu iclasında italiyalı Fabio Kastaldo və almaniyalı Viola Kramon öz çıxışlarında 30 il Azərbaycan torpağını işğal altında saxlayan və həmin əraziləri tamamilə dağıdıb xarabalığa çevirən Ermənistana dəstək olmaqla yanaşı, ölkəmizə qarşı təhdidlərə də cəhd göstəriblər. Əslində, bu qətnamənin heç bir əhəmiyyəti və mənası yoxdur. Heç Aİ özü və üzv dövlətlər də sənəddə əks olunan xülyaları qəbul etmirlər. Məlumdur ki, Avropa Parlamenti yeni seçkilərə hazırlaşır və Azərbaycana qarşı çağırışları erməni lobbisinin pulu ilə işləyən deputatlar səsləndirir. Bu maliyyələşmənin arxasında Brüsseldə yaşayan erməniəsilli Kaspar Karapetyan dayanır. Karapetyan transmilli cinayətkardır və bir çox bölgələrdə silah və narkotik ticarəti ilə məşğuldur. Karapetyanın biznesi bunun üzərində qurulub və Avropa Parlamentinin deputatlarına verilən rüşvətin mənbəyi də odur. Ona görə də Azərbaycan bu cür cinayətkar qrupların felinə düşən Aİ-dən ədalətli mövqe gözləmir. Bu oyunların arxasında Makron kimiləri, Avropa Parlamentində olan islamafob, rasist və türkofob dairələr, səlbçi və neokolonial təfəkkürlü agentlər dayanır. Ancaq Azərbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur. Bu cür hücumlar müasir səlibçilikdir və Qərbin mütləq monopoliya dövrü başa çatmaqdadır. Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul edərkən Avropa Şurası Parlament Assambleyasına və ümumən Avropadakı qərəzli dairələrin, təşkilatların düşmən mövqeyinə sərt reaksiya verdi və xəbərdarlıq etdi. Dövlət başçısı vurğuladı ki, Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsü dialoqa xidmət etmir. Prezident qeyd etdi ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir. Ölkə rəhbəri Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq. Prezident bildirib ki, biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir: "Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?! Almaniya kansleri qərəzsizlik nümayiş etdirir və onun bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkarcasına və məqsədyönlü şəkildə edir. Bildiyiniz kimi, biz bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlmişik. Çünki əgər bizim öz mövqeyimizi bildirmək hüququmuz yoxdursa, nəyə görə biz orada olmalıyıq". Nəzərə çatdıraq ki, AŞPA-nın qış sessiyası zamanı qurum Azərbaycana qarşı qərəzli mövqe tutaraq, ölkəmizi səsvermə hüququndan məhrum edən qətnamə qəbul edib. Buna etiraz olaraq nümayəndə heyətimiz AŞPA-da fəaliyyətini dondurduğunu bəyan edib və sessiyanı tərk edib. Türkiyə, Gürcüstan, Macarıstan və bir neçə beynəlxalq təşkilatdan sonra Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası da Azərbaycanla bağlı AŞPA-ya müraciət edib. Məktub müəllifləri Cənubi Qafqazın aparıcı dövlətlərindən biri olan Azərbaycanın insan hüquqlarına hörmətlə yanaşdığını vurğulayaraq, yaxın gələcəkdə Azərbaycan nümayəndə heyətinin AŞ PA-da səsvermə hüququnun bərpa ediləcəyinə ümidlərini ifadə ediblər.

**Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında bildirib ki, dövlətimizin mövqeyi müstəqildir və qətidir. Ona görə də Azərbaycana qarşı qərəz nümayiş etdirənlərə qarşı heç nədən çəkinmədən adekvat cavablar veririk. Deputat vurğulayıb ki, Avropa Şurası Parlament Assambleyası ölkəmizə qarşı ədalətsizlik nümayiş etdirərək bir il müddətinə nümayəndə heyətimizin etimadnaməsini qəbul etmədi:** "Cavabımız adekvat olmalıdır. AŞPA bizə qarşı nümayiş etdirdiyi qərəzli qərarını geri çəkməsə, Avropa Şurasından çıxmaq məsələsini gündəmə qoyacağıq. Əgər AŞPA Fransanın və ermənilərin diktəsi ilə Azərbaycana qarşı düşmənçilik nümayiş etdirirsə, deməli, oyuncaq bir təşkilatdır. O halda Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirakımız bizə nə qədər lazımdır? Cənab Prezident qətiyyətli şəkildə Martin Çunqonun qarşısına bu məsələni qoydu. Avropa Şurası demokratik təsisatdırsa, məsələlərə ikili standartlardan yanaşmamalıdır. Qərəz və islamafobiyanı kənara qoyub haqq və ədaləti dəstəkləməlidir. Ermənistan Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayıb, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımlar törədib. Azərbaycan isə ermənilərə heç vaxt təzyiq göstərməyib. Bu gün yeni reallıqlar yaranıb. Yaranmış yeni reallığı Avropa Şurası və onun təsisatları qəbul etməlidirlər. Əks halda bizə nə Avropa Şurası, nə də ki, onun təsisatları lazımdır. Dünya ancaq Avropa Şurasından ibarət deyil. Ümid edirik, AŞPA cənab Prezident İlham Əliyevin qəti mövqeyindən və xəbərdarlığından nəticə çıxaracaq və çox yersiz şəkildə Azərbaycana qarşı qəbul etdiyi qərəzli qərarı geri oxuyacaq".

**İsmayıl Qocayev**

# Uçurum getdikcə dərinləşir

## Rusiya ilə Ermənistan arasındakı gərginlik qırılma nöqtəsindədir





"Paşinyan var gücü ilə Rusiya qoşunlarının ərazilərindən çıxarılması üçün çalışır. Bu proses baş tutacağı təqdirdə Güney Qafqaza Rusiyanın birbaşa müdaxilə imkanları sıfıra enəcək"

**Ermənistan Xarici İşlər Nazirliyi 2 ölkə arasında media kommunikasiyaları sahəsində sazişin pozulması hallarının davam etməsi ilə bağlı Rusiyaya nota verib.**

Ermənistanın yüksək texnologiyalar sənayesi naziri Mxitar Ayrapetyanın sözlərinə görə, son vaxtlar Rusiya efirlərində Ermənistan rəhbərliyinə qarşı təhqiramiz ifadələr tez-tez eşidilir. Ayrapetyan onu da bildirib ki, Rusiya ilə kütləvi kommunikasiyalar sahəsində əməkdaşlıq haqqında dövlətlərarası sazişin təkmilləşdirilməsinə ehtiyac var.

**Siyasi şərhçi Azər Həsrət isə "Şərq"ə açıqlamasında deyib ki, Ermənistan-Rusiya münasibətləri arasındakı uçurum getdikcə dərinləşir. Baş verənlər hər nə qədər bu dövlətlərin daxili işi olsa da, bölgədəki proseslərə də təsiri qaçılmaz olacaq:** "Ermənistanla Rusiya arasındakı münasibətlərin yumşalması və ya gərginləşməsi onların daxili məsələsidir. Hər ikisi suveren dövlətdir və ikitərəfli münasibətləri müəyyənləşdirərkən bizim maraq və mənafelərimizə zidd olmayan istəyən davranışı sərgiləyə bilərlər. Beynəlxalq təcrübədə də iki ölkə arasında media kommunikasiyalarının tənzimlənməsi ilə bağlı konkret tələblər var. Tərəflər bir-birinin daxili işinə qarışmamalı, sabitliyin pozulmasına şərait yaradan məlumatlar yayımlamamalıdır. Lakin müşahidə edirik ki, Ermənistanda anti-Rusiya mövqeyi güclənib. Rusiya isə Ermənistana barmaqarası dövlət kimi baxır. Bu da son nəticədə Ermənistanın Rusiyaya nota verməsi ilə nəticələnir. Proses bu cür davam edəcəyi təqdirdə Rusiya ilə Ermənistan arasındakı gərginlik qırılma nöqtəsinə çatacaq. Xatırlayırsınızsa, bu günlərdə Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında fəaliyyətini dondurması ilə bağlı açıqlaması oldu. Rusiya isə Ermənistanın bu bəyanatına əcaib reaksiyalar verdi".

**Ermənistan Rusiyadan qopacağı halda prosesin regiona, xüsusən də Azərbaycan və Ermənistan arasındakı sülh danışıqlarına təsirinə gəldikdə isə A.Həsrət deyib ki, proses istənilən halda Azərbaycanın xeyrinə olacaq:** "Təkcə bizim yox, bütövlükdə güney Qafqazın xeyrinə olacaq. Azərbaycanla Gürcüstan uzun illərdir Rusiya ilə münasibətlərdə lazımi həddə tənzimlənib. Hər iki ölkə ərazisindən rus qoşunları birdəfəlik çıxarılıb və münasibtlər sırf ikitərəfli dövlətlərarası müstəvi formatında davam etdirilir. Rusiya nə Azərbaycan, nə də Gürcüstan ərazisində hakimi-mütləq deyil. Ermənistanda isə Nikol Paşinyan siyasi hakimiyyətə gələnə qədər ölkə Rusiyanın forpostu idi. Hətta dövlət başçılarını belə birmənalı olaraq Rusiya idarə edirdi. Hazırda isə Paşinyan var gücü ilə Rusiya qoşunlarının ərazilərindən çıxarılması üçün çalışır. Bu proses baş tutacağı təqdirdə Güney Qafqaza Rusiyanın birbaşa müdaxilə imkanları sıfıra enəcək".

**Şəymən**

# Sülh sazişinin mətni razılaşdırılmalıdır

## Fransadan fərqli olaraq Almaniya regiondakı geosiyasi prosesləri düzgün dəyərləndirir



**Fevralın 28-də Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Berlin görüşü Almaniya xarici işlər naziri Annalena Berbokun da iştirakı ilə üçtərəfli formatda davam etdirilib.**

Görüşdən əvvəl mətbuata açıqlama verən Annalena Berbok Ermənistan və Azərbaycanın uzun illər davam edən ağrılı münaqişədən sonra davamlı sülhə nail olmaq imkanı olduğunu bildirib.

Almaniyanın görüşlərə vasitəçilik və etimad quruculuğu tədbirləri ilə sülh səylərini dəstəkləməyə sadiq olduğunu qeyd edən Annelena Berbok, sülh razılaşmasının əldə edilməsinin hər iki ölkəyə və ümumilikdə regiona müsbət təsirlərinin olacağını deyib, ABŞ, Aİ və digər tərəfdaşların da bu istiqamətdə çalışdıqlarını bildirib.

Eyni zamanda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün Berlində təşkili Almaniyanın sülh prosesinə konstruktiv yanaşmağa çalışdığını göstərir. Almaniya qonşuluğunda yerləşən, "alovun üstünə benzin tökən" Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir.

Azərbaycan və Ermənistanın xarici işlər nazirləri danışıqlara ev sahibliyi etdiyi üçün Annalena Berboka təşəkkürlərini ifadə ediblər.

**Məsələni "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin sektor müdiri, politoloq İlyas Hüseynov bildirib ki, Fransadan fərqli olaraq Almaniya regiondakı geosiyasi prosesləri düzgün dəyərləndirir:** "Eyni zamanda Ermənistanı silahlandırmaq əvəzinə bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin tərəfdarı olduğunu bəyan edir. Almaniya dövləti rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü müxtəlif müstəvilərdə təsdiqləyib və buna dair fikirlərini açıq ifadə edib. Bu isə Almaniyanın danışıqlar masasında iştirakını şərtləndirən əsas amil kimi qiymətləndirilir. Münhen Təhlükəsizlik Konfransında Almaniya kansleri Olaf Şoltsun iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında keçirilən görüş çox konstruktiv oldu. Daha sonra Berlində Almaniyanın xarici işlər naziri Annalena Berbokun rəhbərliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü də müsbət haldır. Bundan sonra da danışıqlar davam etdirilməli və sülh sazişinin mətni razılaşdırılmalıdır. Almaniyanın vasitəçiliyi ilə görüşlərin davamı regionda sülhün bərqərar olmasına xidmət edəcək. Ermənistan Qərb müstəvisində danışıqların aparılması üçün çox çalışır. Azərbaycan isə Almaniyanın iştirakı ilə baş tutan görüşdə bir daha bəyan etdi ki, bizim üçün geosiyasi mərkəzin fərqi və önəmi yoxdur. Çünki Azərbaycan üçün milli maraqlar prioritet təşkil edir. Həmçinin Almaniyanın qonşuluğunda yerləşən Fransanın Ermənistanı öldürücü silahlarla təchiz etməsi regionda təhlükəsizlik təhdidlərini gücləndirir".

**Şahanə Ziyad**

# Elektron reseptin vətəndaşa xeyri olacaq

## Bunun üçün apteklərin də sistemə qoşulması lazımdır

**Elektron resept kağız dövriyyəsini aradan qaldıracaq və həkimlər vətəndaşlara elektronlaşdırılmış, daha operativ şəkildə xidmət göstərəcəklər. Eyni zamanda elektron resept vətəndaşların tibbi məlumatlarına əlçatanlığını, tibb mütəxəssislərinin daha effektiv xidmət göstərməsini və dərman dövriyyəsinə nəzarətin gücləndirilməsini təmin edir.**

Bu barədə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin şöbə müdiri Səid Fərzullayev danışıb. Onun sözlərinə görə, elektron resept reseptlərin oxunaqlığını və ya səhv şərhini aradan qaldıracaq, əvvəllər təyin edilən dərmanların tarixini görməyə, dərmanlar arasında arzuolunmaz uyğunsuzluğun qarşısını almağa, dəqiq dozaları göstərməyə, habelə Xəstəliklərin Beynəlxalq Təsnifatına əsaslanan diaqnozlara uyğunlaşdırmağa imkan verəcək.



"Elektron resept sistemi daim işlək vəziyyətdə olmayacaqsa, müayinə və müalicə üçün müraciətlər zamanı uzun növbələr yarana bilər"

**Qeyd edək ki, elektron resept dövlət tibb müəssisələrində, ambulator tipli məntəqələrdə tətbiq edilir. Elektron resept barədə "Şərq"ə danışan həkim-terapevt Şahvələd Məmmədov qeyd etdi ki, bunu vətəndaşa xeyri olacaq:**

- Elektron reseptin üstünlüyü budur ki, vətəndaşın hansı xəstəliyə qarşı hansı müalicə aldığı, hansı dərman preparatlarından istifadə etdiyi bilinəcək. Müalicə həkiminin bu məlumatlara çıxışı olacaq. İndiyədək hər bir vətəndaşın yerli poliklinika şöbələrində adına açılmış tibb kitabçası vardı. Orda şəxsin vurduğu peyvəndlər, keçirdiyi xəstəliklər haqqında məlumatlar, verdiyi analizlərin, müayinələrinin cavabları toplanırdı. Elektron resept sisteminin üstünlüyü budur ki, bu sistem sayəsində vətəndaşın müalicəsi barədə məlumatlar orada qeyd ediləcək, həkim pasiyentə müalicə təyin edəndə, indiyədək qəbul etdiyi dərman preparatları haqqında da məlumat əldə edəcək və növbəti müalicəni bu dərman preparatlarına uyğun, onlardan irəli gələrək təyin edəcək. Elektron resept sistemi haqqında Səhiyyə Nazirliyinin rəsmiləri məlumat verərək bildiriblər ki, E-Resept sistemi Azərbaycanın tibb müəssisələrində vətəndaşlara verilən reseptlərin elektron qeydiyyatını nəzərdə tutur. Bu, reseptlərin oxunağlığını və ya səhv şərhini aradan qaldıracaq, əvvəllər təyin edilmiş dərmanların tarixini görməyə, dərmanlar arasında arzuolunmaz uyğunsuzluğun qarşısını almağa, dəqiq dozaları göstərməyə, habelə Xəstəliklərin Beynəlxalq Təsnifatına əsaslanan diaqnozlara uyğunlaşmağa imkan verəcək. Bu da öz növbəsində, buraxılmış diaqnozları beynəlxalq təsnifata və vətəndaşların sağlamlığının sonrakı təhlilinə uyğunlaşdırmağa imkan yaradacaq. Dərman vasitələrinin yenilənmiş reyestri ölkə miqyasında makroanaliz üçün əsas olacaq. Belə ki, dərman vasitələrinin mövcudluğu və tələbat, dərman preparatlarını kimə və hansı diaqnoz üçün təyin etmiş həkimlər barədə dolğun məlumat olacaq. Bu həm də, dərman satışı sahəsində aparılan əməliyyatlara nəzarətin gücləndirilməsi, o cümlədən saxta məhsulların yayılmasının qarşısının alınması nəticəsində əlavə iqtisadi effekt yaradacaq. Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən, Səhiyyə Nazirliyi bu ilin sonunadək elektron resept sisteminin tətbiqinə başlamalıdır.

**Bununla belə Ş.Məmmədov hesab edir ki, elektron resept haqqında əhaliyə ətraflı məlumat verilməlidir. Bunu isə yerli poliklinika şöbələri edə bilər:**

- Vətəndaş bilməlidir ki, elektron sistem nədir, ondan necə istifadə edəcək. Bildiyim qədər elektron sistemin tətbiqi zamanı, məsələn, apteklərdən buraxılan dərmanlar dərhal sistemə oturmalıdır. Bunun üçün apteklərin də sistemə qoşulması lazımdır. Satış həyata keçirilən kimi hansı dərmanın hansı qiymətə satıldığı sistemdə qeydə alınmalıdır. Bütün apteklər bu sistemə qoşulacaqmı, vətəndaş ona dərman preparatının dövlətin təyin etdiyi qiymətə satıldığını bilmək imkanı əldə edəcəkmi? Bunlar konkretləşdirilməli məsələlərdir. Vətəndaşa başa salmaq lazımdır ki, elektron reseptin hansı üstün cəhətləri, hansı faydaları var. Həm də elektron resept sistemi daim işlək vəziyyətdə olmayacaqsa, müayinə və müalicə üçün müraciətlər zamanı uzun növbələr yarana bilər. Elə etmək lazımdır ki, vətəndaş - pasiyent saatlarla həkim qəbulunda gözləməsin.

**Məlahət Rzayeva**

# Berlin görüşündən ciddi nəticə gözlənilmir

## Ermənistan sülh danışıqlarının beynəlxalq gündəmdən çıxmamasına çalışır



**Tofiq Zülfüqarov:**

"İrəvanın məqsədi müzakirələri beynəlxalq müstəviyə daşımaq və xarici güclərin əliylə Bakıya təzyiq göstərməyə nail olmaqdır"

**Dünən Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında Berlində görüş keçirildi. Nazirlər arasında əvvəlcə ikitərəfli görüş baş tutdu. Görüş daha sonra Almaniyanın xarici işlər naziri Annalena Berbokun iştirakı ilə üçtərəfli formatda davam etdirildi. Bundan başqa, almaniyalı nazir azərbaycanlı və erməni həmkarları ilə ayrı-ayrılıqda ikitərəfli görüşlər də keçirib.**



Fevralın 29-da isə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında sülh müqaviləsi layihəsi üzrə danışıqların ikinci raundu baş tutub və müzakirələr davam etdirilib. Almaniyanın xarici işlər naziri Annalena Berbok hər iki ölkənin cəsarətli addımlar atdığını söyləyib. Nazir əlavə edib ki, Azərbaycan və Ermənistan liderləri qalan problemlərin sülh yolu ilə həllinə razılaşıblar: "Almaniya iki ölkə arasında danışıqlara ev sahibliyi etməklə, hər iki ölkənin səylərini dəstəkləməkdə qərarlıdır". Berlin görüşü, gözlənilən nəticə və Almaniya rəsmisinin açıqlamaları ilə bağlı "Şərq"ə danışan keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib ki, yanlış olaraq bizdə belə fikir formalaşıb ki, guya, Azərbaycan heç bir formada vasitəçiliyi qəbul etmir. Sabiq XİN başçısı vurğulayıb ki, burada söhbət üçüncü tərəfin birbaşa vasitəçiliyindən getmir...

**- Tofiq müəllim, xarici işlər nazirlərinin Almaniyadakı görüşlərini necə dəyərləndirirsiniz? Müzakirələr üçün əlavə platforma meydana gəlir, yoxsa Berlin sadəcə görüş məkanıdır?**

- Berlin görüş və müzakirələr üçün sadəcə məkandır. Digər formatlardan - Moskva, Brüssel, Vaşinqtondan fərqli olaraq Almaniya daha xoşniyyətli yanaşır və görüş üçün öz paytaxtını təklif edir. Rəsmi Berlinin təklifi odur ki, Azərbaycan və Ermənistan müzakirələrini ikitərəfli aparsınlar. Vasitəçilik tamam ayrı məsələdir. Tərəflər arasında vasitəçi olan ölkələr adətən sənədlərin hazırlanmasında, danışıqlar mövzusunun müəyyənləşməsində və digər məqamlarda birbaşa iştirak edirlər. Amma Berlində, o cümlədən Vaşinqtonda dediyim vasitəçilik olmayıb. Nəzərə alaq ki, Avropa İttifaqının vasitəçiliyi gözlənilən nəticə vermədi. Çünki həmin platformada vasitəçi kimi çıxış edən dövlətlər, Avropa rəsmiləri, Fransa Prezidenti E.Makron tərəflərlə razılaşdırılmadan müxtəlif bəyanatlar verirdilər. Görüşlərin vasitəçilərin iştirakı ilə keçirilməsini, prosesin onların nəzarətində getməsini istəyiblər. Azərbaycan da haqlı olaraq buna qarşı çıxıb.

**- Azərbaycan və Ermənistan rəsmiləri arasında ikitərəfli görüşlər regiona daha yaxın paytaxtlarda keçirilə bilməzmi?**

- Rəsmi Bakının əsas mövqeyi ondan ibarətdir ki, danışıqlar birbaşa və vasitəçisiz aparılsın. Ümumiyyətlə, kənar ölkələrin Cənubi Qafqaz bölgəsinə müdaxiləsinə imkan verilməməlidir. Bölgədən tamamilə getsələr daha yaxşıdır. Azərbaycan və Ermənistan arasında aparılan ikitərəfli müzakirələr beynəlxalq gündəmdən çıxmalıdır. Söhbət iki ölkə arasındakı sərhədlərin müəyyənləşməsindən, əlaqələrin qurulmasından, kommunikasiyaların açılmasından gedir. Vasitəçiliyə cəhd göstərən tərəflər çalışırlar ki, bu "vasitəçiliklə" regionda hansısa imkanlara sahib olsunlar.

**- Yəni Berlindəki görüşlərdə də hər hansı nəticə olacağına ehtimal vermirsiniz?**

- Berlindəki XİN başçılarının görüşlərindən ciddi gözlənti içinə girmək doğru deyil. Onsuz da tərəflər arasında bu və ya digər şəkildə əlaqələr mövcuddur. Canlı təmaslar olmasa belə, internet üzərindən tərəflər 6-7 dəfə sülh sazişi ilə bağlı paketləri bir-birinə təqdim ediblər. Təkliflərin mübadiləsi baş verib və proses gedir. Şərt deyil ki, tərəflər mütləq mənada hər məsələni qarşı-qarşıya oturub müzakirə etməlidirlər. Göründüyü kimi, canlı görüşlərdən də gözlənilən nəticə çıxmır. Əgər hər ikitərəfli görüş nəticə versəydi, Azərbaycan və Ermənistan rəsmiləri Avropanın mərkəzinə, Almaniyaya niyə gedirdilər? İkitərəfli görüşləri sərhədlərdə də təşkil etmək mümkündür. Ancaq görünən odur ki, Ermənistan sülh danışıqlarının beynəlxalq gündəmdən çıxmamasına çalışır və bunun üçün ciddi cəhd göstərir. İrəvanın məqsədi müzakirələri beynəlxalq müstəviyə daşımaq və xarici güclərin əliylə Bakıya təzyiq göstərməyə nail olmaqdır. Təbii ki, bu, qəbuledilməzdir və Azərbaycan da bunu gözəl bilir.

**- Ermənistanı silahlandıran və durmadan İrəvanı təhrik edən Fransa Paşinyan hökumətinə normal sülh müzakirələri aparmağa imkan verəcəkmi? Parisi neytrallaşdırmaq, prosesdən uzaqlaşdırmaq mümkündürmü?**

- Azərbaycan müstəqil dövlətdir və tam müstəqil siyasət həyata keçirir. Amma Ermənistanın siyasəti hansısa xarici qüvvələrin maraqları kontekstində formalaşır. İşğal vaxtı da beləydi. O zaman Rusiyanın himayəsində idilər. İndi görürlər ki, Rusiya müharibə şəraitindədir, sanksiyalar altındadır və zəifləyib. Fransa kimi ölkələr də bundan istifadə edib İrəvan üzərində dominantlıq qurmağa çalışırlar. Bir növ yaranmış boşluğu doldurmaq niyyəti ilə müxtəlif addımlar atırlar. Ermənistanın təhlükəsizliyini uzun müddət Rusiya təmin edib. İrəvan hökuməti Rusiyanı Qərb ölkəsi ilə əvəzləmək istəyir. Əlbəttə, burada real təhlükədən, daha doğrusu, Ermənistanın təhlükəsizliyinin təmin olunmasından söhbət getmir. Ermənistanın məqsədi arxasına yeni güclər alaraq yenə də öz siyasətlərini davam etdirməkdir. Vəziyyət dəyişdiyi üçün Kreml ermənilərin işğalçılıq siyasətini dəstəkləyə bilmədi. Nəzərə alaq ki, artıq Azərbaycan-Türkiyə hərbi müttəfiqliyi də formalaşıb və güclənib. Ermənilərdən ötrü NATO ölkəsi, özü də Türkiyə kimi qonşu dövlətlə düşmənçilik etmək Moskvaya sərf etmir. Azərbaycan da kifayət qədər güclənib. Fransa da elə vəziyyətdə deyil ki, uzaq bir regionda yerləşən 2-3 milyonluq Ermənistanı tam şəkildə himayəsinə götürsün. Rəsmi Bakı yaxşı bilir ki, Ermənistana vəd edilən yardımların heç 50 faizi də reallaşmayacaq. Sadəcə olaraq həm ermənilər, həm də onları himayə edənlər vaxt uzatmaqla məşğuldur.

**- Son günlərdə Avropa təşkilatlarından Azərbaycana yönəlik çağırışlar artmaqdadır. Ötən gün Prezident İlham Əliyev bu məsələyə toxundu, xüsusən AŞPA-ya xəbərdarlıq etdi. Ölkə rəhbərinin Avropaya ünvanladığı sərt mesajları necə şərh edərdiniz?**

- Avropada bəzi ölkələr, beynəlxalq qurumlar Fransanın təhriki ilə hərəkətə gəliblər. Azərbaycan əleyhinə çıxışlar edərək, ölkəmizə qarşı qətnamələrin qəbul olunmasına çağırış edirlər. Bakıya sanksiyaların tətbiq edilməsini istəyirlər və s. Görürük ki, Avropa İttifaqı Cənubi Qafqazda və Azərbaycanda müəyyən imkanlara sahib olmaq üçün təzyiq taktikasına keçib. Əslində, Aİ-nin təzyiq kampaniyası təkcə bizə qarşı deyil. Bütövlükdə Azərbaycan-Türkiyə tandeminə və Türk Dövlətləri Təşkilatına yönəlik təzyiqlərdir. Məqsəd Türk dünyasının güclənməsinin, söz sahibi olmasının qarşısını almaqdır. Amma geopolitik faktor olaraq Türk Dövlətləri Təşkilatı artıq real siyasi gücə çevrilib. Şübhəsiz, Azərbaycan-Türkiyə birliyi və TDT Avropanın bütün təzyiqlərini neytrallaşdırmaq gücündədir. Qərb gec-tez, istər-istəməz bizim qapımıza üz tutacaq. Cənubi Qafqazda və Mərkəzi Asiyada var olmaq istəyən Avropa mütləq bizim maraqlarımızı nəzərə almalıdır. Bu, qaçılmaz reallıqdır.

**İsmayıl Qocayev**

# Kreml Qərbə cavab vermək istəyir

## Dnestryanı separatçıların müraciəti Rusiya tərəfindən hazırlanmış oyunun tərkib hissəsidir

**Dnestryanı separatçıları ("Dnestryanı Moldova Respublikası") Rusiyaya müraciət etmək barədə qərara gəliblər. Qərar qətnaməsində vurğulanıb ki, 220 mindən çox Rusiya vətəndaşının Dnestryanıda daimi yaşaması və Moskvanın "sülhməramlı" missiyası nəzərə alınaraq Dnestryanı bölgənin qorunması üçün Kremlə müraciət ünvanlanıb.**



Qətnamədə vurğulanıb ki, Moldova Dnestryanıya qarşı iqtisadi müharibəyə başlayıb, qəsdən milyonlarla dollarlıq büdcə kəsiri üçün şərait yaradıb. "Deputatlar" bəyan ediblər ki, Moldova dərman və tibbi avadanlıqların tədarükünü əngəlləyir. Bundan əlavə, Kişineu separatizm haqqında qanun qəbul edib və bu qanun "Dnestryanı vətəndaşlarına cinayət təqibi üçün ilkin şərtlər" formalaşdırır.

**Siyasi şərhçi Zeynal Əmraliyev "Şərq"ə bildirib ki, bu, eyniylə Ukrayna ilə oxşar ssenaridir. Ekspertin sözlərinə görə, Rusiya 2 il əvvəl olduğu kimi indi də eyni üsulla hərəkət edir:** "Dnestryanın müraciəti şübhəsiz ki, Rusiya tərəfindən hazırlanmış oyunun tərkib hissəsidir. Rusiya Qərbə cavab vermək istəyir. İsveç və Finlandiya NATO-ya üzv olduqdan sonra Rusiya hansısa formada Qərbə cavab verməliydi. NATO-nun Şərqə doğru genişlənmək siyasətinə Rusiya Dnestryanını tutmaqla cavab verəcək. Rusiya Ukraynaya ciddi dəstək gələcəyindən ehtiyat edir. Son zamanlar bəzi ölkələr, xüsusilə Fransa Rusiyaya qarşı Ukraynaya NATO qüvvələrinin yerləşdirilməsini təklif edir. Rusiya bunun qarşısını almaq üçün cəbhəni genişləndirməyə çalışır. Polşa və Baltikyanı ölkələr Ukrayna ilə bərabər Rusiyaya qarşı yeni ittifaq yaratmaq arzusundadır. Son zamanlar Polşa və Baltik ölkələrindən Rusiya əleyhinə kəskin açıqlamalar verilir. Hətta tərəflər arasında zaman-zaman diplomatik qalmqallarda yaranır. Rusiya Moldovaya hücumla həm də bunun qarşısını almağa çalışır. Martda Rusiyada prezident seçkiləri keçiriləcək. Putin Dnestryanını Rusiyaya qatmaqla öz nüfuzunu daha da qaldırmaq və seçkiyə daha güclü və inamlı getmək niyyətindədir".

**Z.Əmralıyevə görə, Putin hakimiyyəti varisinə ötürməyə hazırlaşır:** "Hazırda NATO Şərqə doğru genişlənməkdə davam edir. Putin özündən sonra xələfi üçün problemli məsələ saxlamaq istəmir. Dnestryanı məsələsi Rusiya üçün gələcəkdə problem ola bilər. Ona görə Putin vaxtında özü işi bitirmək istəyir. Separatçı bölgələrin saxlanması Rusiya iqtisadiyyatına əlavə maliyyə yükü deməkdir. Dnestryanı Rusiyanın federal subyektinə çevrilərsə, Rusiya onu mərkəzi vergi sisteminə qoşa bilər. Bu, Rusiya büdcəsinin xeyrinə olacaq. Dnestryanının tutulması Qara dənizdə Rusiyanın mövqeyini daha da gücləndirəcək. Rusiya Krımın təhlükəsizliyinin, həmçinin Ukraynada yeni işğal etdiyi bölgələrə gələcək təhlükələri dəf etmək üçün də mühüm əhəmiyyət kəsb edir. Bu, bir daha onu göstərir ki, Rusiyanın niyyəti Ukraynanı tamamilə işğal etmək və onun bir dövlət kimi varlığına son qoymaqdır. Ehtimal ki, Rusiya buradakı sistemə çox müdaxilə etməyəcək. Dnestryanı rusları mühafizəkar təbiətə malikdir. Bölgədə əsasən kənddə məskunlaşma yüksək səviyyədədir".

**İsmayıl**

# Saxta dəyərlər ilə regionda sülhə töhfə vermək olmaz

## Avropa Parlamentinin qərəzli bəyanatları öz nüfuzuna xələl gətirir

**"Avropa Parlamenti ikili standartlara və qərəzli açıqlamalara əsaslanan fəaliyyətini davam etdirir". Bu barədə millət vəkili Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib. Deputat vurğulayıb ki, öz ərazi bütövlüyü və suverenliyini tam bərpa edən Azərbaycanın anti-terror əməliyyatlarını "hərbi aqressiya" kimi qələmə vermək nəinki ədalətsiz və qərəzli mövqedir, eyni zamanda beynəlxalq hüquqa hörmətsizlikdir:**



"Azərbaycan öz suveren hüquqları çərçivəsində ərazi bütövlüyünü bərpa edib. Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri bir daha təsdiq etdi ki, qalib xalq müzəffər Ali Baş Komandanının siyasətini tam dəstəkləyir. Azərbaycanın həyata keçirdiyi siyasət regionda sülh və təhlükəsizliyin güclənməsinə xidmət edir. Unutmayaq ki, Azərbaycan dövləti istənilən xarici təhdidlərə və revanşist meyillərə cavab vermək gücündədir. Bu güc, sadəcə, siyasi və iqtisadi potensial ilə məhdudlaşmır, həmçinin birliyimizin yaratdığı üstünlükdür. Azərbaycan xalqı hər zaman dövlətinin yanındadır və olacaq. İrəvan daxil olmaqla, bəzi paytaxtlarda səsləndirilən qərəzli bəyanatlardan "həvəslənib" bu birliyimizi pozmaq istəyən marjinal qrupların cəhdləri də həvəsdən başqa heç nə olmayacaq. Güclü Azərbaycan dövlətinin yanında məğrur Azərbaycan xalqı var.

Avropa Parlamentinin qərəzli bəyanatları isə bu qurumun öz nüfuzuna xələl gətirir. Saxta dəyərlər ilə regionda sülhə töhfə vermək olmaz".

**İsmayıl**

# Heç bir şərt irəli sürülə bilməz

## Ermənistan hərbçimizi dərhal geri qaytarmalıdır

### Əsgərimizə cinayət işi açmaq İrəvana heç bir dividend qazandırmayacaq

**Ermənistanda Azərbaycan Ordusunun hərbçisinə qarşı uydurma ittihamlarla cinayət işi açılıb.**

**Hərbçi Ruslan Pənahov haqqında Ermənistan İstintaq Komitəsi təxribata cəhd, qanunsuz silah-sursat saxlama, irqi və dini dözümsüzlük zəminində adam öldürməyə cəhd maddələri ilə cinayət işi açıb.Verilən məlumata görə, Ruslan Pənahov müstəntiqin qərarı ilə həbs olunub. Hazırda işin detalları aydınlaşdırılır.**

Qeyd edək ki, Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumata görə, fevralın 28-i səhər saatlarında Azərbaycan Ordusunun əsgəri Pənahov Ruslan Eldəniz oğlu Laçın rayonu ərazisindəki xidməti mövqelər arasında hərəkət edərkən əlverişsiz hava şəraitində istiqaməti itirərək azıb. Ermənistan tərəfi isə dünən açıqlama yayaraq, şərti sərhədi keçən Azərbaycan əsgərinin saxlanıldığını bildirib.

**Ruslan Pənahovun İrəvanda həbs edilməsi ilə bağlı danışan ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərovun sözlərinə görə, əsgərimiz heç bir təxribat, terror və ya hər hansı cinayət törətməyib. Onun həbs edilməsi absurddur:** "Ermənistan Azərbaycana yalvararaq Ruslan Pənahovu azad edəcək. Daha doğrusu, əsgərimizin azad olunması ilə bağlı qərar qəbul etməyə məcbur olacaq. Narahat olmağa dəyməz. Bəzi məsələlər var ki, hələlik açıqlaya bilmirəm, lakin deyə bilərəm ki, çox qısa bir müddətdə əsgərimiz azad olunacaq".

**Hərbi ekspert bildirib ki, bu, Ermənistanın növbəti saxtakarlıq və hiyləgərliyidir:** "Azərbaycan 2020-ci ildən bu günə qədər heç bir şərt irəli sürmədən yüzlərlə erməni hərbçini azad edib. Hansı ki, o hərbçilərin Azərbaycan ərazisində həqiqətən terror və digər cinayətlərdə iştirakı sübut olunmuşdu. Bu, Ermənistanın bizə "çox sağoludur" ki, əlverişsiz hava şəraitində yolunu azan əsgərimizi terrorçu elan edib, 5 uydurma maddə ilə cinayət işi açır. Azərbaycan cəmiyyətində belə bir fikir formalaşıb ki, guya, Ermənistan tərəfi Bakıda həbsdə olan separatçıları - Araik Arutyunyan, Bako Saakyan, Arkadi Qukasyan, Levon Mnatsakanyan, David Manukyan, David Babayan, Ruben Vardanyan və Davit İşxanyanı dəyişmək üçün Ruslan Pənahovu həbs edib. Yox, belə deyil, Ermənistanda bu separatçıları çoxdan unudublar. Azərbaycanda xeyli sayda cəza çəkən erməni terrorçu var. Onların bir neçəsini azad etmək üçün Ruslan Pənahovu həbs edib. Lakin buna nail ola bilməyəcək. Ermənistan sonda Azərbaycan deyəni edəcək".





**Hərbi ekspert Ədalət Verdiyev də "Şərq"ə açıqlamasında azaraq əks tərəfə keçən azərbaycanlı hərbi qulluqçunun Ermənistanın güc strukturları tərəfindən diversant kimi qələmə verilməsinin tamamilə absurd iddia olduğunu deyib. Ekspertin sözlərinə görə, hazırda təhlükəsizlik sistemi darmadağın olan Ermənistanda Azərbaycan Silahlı Qüvvələri hansısa bir əməliyyat həyata keçirmək istəsə, bunun üçün ordumuzun tərkibində kifayət qədər yüksək hazırlıqlı xüsusi təyinatlılar və komandolarımız var:** "Azərbaycanın 19 yaşlı müddətli hərbi qulluqçunu xüsusi əməliyyat üçün Ermənistan tərəfə keçirməsi məntiqsizdir. Şərti dövlət sərhədində xidmət aparan hərbçilər bu və ya digər istiqamətdə azaraq qarşı tərəfə keçirlər.Bu tip hadisələrin baş verməsi normaldır. Bundan öncə iki Azərbaycan hərbçisinin qarşılığında 32 erməni diversantını Ermənistana təhvil vermişdi. Bunu nəzərə alaraq qarşı tərəf Ruslan Pənahovu dərhal geri qaytarmalıdır. Əks halda Azərbaycan-Ermənistan arasındakı mövcud gərgin münasibətlər daha da gərginləşəcək ki, bu, qarşı tərəfə heç bir xeyir gətirməz. Yaxşı olar ki, Ermənistan qeyd-şərtsiz hərbçimizi geri qaytarsın. Ona cinayət işi açmaq İrəvana heç bir dividend qazandırmayacaq. Yenə deyirəm, Azərbaycanın minlərlə xüsusi təyinatlısı olduğu halda müddətli xidmətdə olan gənc əsgəri Ermənistana kəşfiyyat məqsədilə göndərməsi məntiqsizdir".

**Şəymən Bayramova**

# Gözəl alim, işgüzar təşkilatçı, qayğıkeş rəhbər

## Arxiv işinin mahir bilicisi Əsgər Rəsulovun 70 yaşı tamam olur



**Tarix müxtəlif dövr və zamanların bir-birini əvəzləməsi deyil, həm də onu yaradan şəxsiyyətlərin portretlərinin qalereyasıdır. Tarixi yaddaşımızın keşiyində duran böyük ziyalı, dəyərli insan, təcrübəli pedaqoq, tanınmış türkoloq və işgüzar təşkilatçı Əsgər Rəsulov müasir Azərbaycanda arxiv işinin elmi əsaslarla inkişafına öz töhfələrini verən şəxsiyyətlərdəndir. Əsgər müəllim haqqında ölkəmizin nüfuzlu ziyalılarının, alimlərinin, yazıçılarının, digər peşə və sənət adamlarının fikir və mülahizələrində onun parlaq portreti daha dolğun və əhatəli şəkildə ifadə edilir.**

Əsgər müəllim haqqında yazılanlar onun elmi bacarığına, pedaqoji fəaliyyətinə, işgüzarlığına və şəxsiyyətinə verilən dəyərin göstəricisidir. Əsgər müəllimin şəxsiyyətinə, elminə, təşkilatçılığına, əqidəsinə ən yüksək dəyəri isə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev vermiş, ona böyük etimad göstərərək dövlətçilik tariximizin və mədəni irsimizin göz bəbəyi kimi qorunduğu mühüm dövlət orqanı olan Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinə rəhbər təyin edib. Arxiv xalqın hafizəsinin qorunduğu strateji sahədir. Dövlətin, xalqın keçmişi ilə gələcəyi arasında körpü qurmaq kimi mühüm missiyanı məhz arxivlər həyata keçirirlər. Müasir Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyev dövlət idarəetməsində arxiv işinin roluna yüksək qiymət verib, arxiv sənədlərinin xalqımızın tarixini əks etdirən yeganə mənbə və tariximizi təhrif edənlərin qarşısının alınmasında mühüm vasitə olduğunu vurğulayıb. Ulu Öndərin bu müdrik fikirlərində arxivlərin dövlət və millət üçün nə qədər faydalı sahə olduğunu, onun elmi-tarixi əhəmiyyətini müəyyən etmək mümkündür.

Elm təsdiq edir ki, insanın şəxsiyyət kimi formalaşmasında zamanın, mühitin, tərbiyənin və təhsilin danılmaz rolu vardır. Əsgər Rəsulov 1954-cü ildə Naxçıvan şəhərində anadan olub, orada orta məktəbi bitirib. Bir il fəhlə işləyib. 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinə daxil olub və 1976-cı ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. Onun yüksək bilik və intellektə malik gənc olması müvafiq qurumların diqqətini cəlb edib və o, SSRİ Xarici İqtisadi Əlaqələr Komitəsi xətti ilə tərcüməçi kimi qardaş Türkiyə Respublikasına uzunmüddətli xarici ezamiyyətə (1976-1979) göndərilib.

Əsgər müəllim 1980-2012-ci illərdə məzunu olduğu təhsil ocağında baş laborant (1980), müəllim (1981), baş müəllim (1985), dosent (1987) və professor (2007) kimi elmi-pedaqoji fəaliyyətlə məşğul olub, 1983-cü ildə filologiya üzrə elmlər namizədi, 2005-ci ildə isə doktorluq dissertasiyaları müdafiə edib.

2012-ci ildən etibarən Əsgər müəllim dövlət işinə irəli çəkilərək Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə Milli Arxiv İdarəsinin rəis müavini, 2018-ci ildə isə İdarənin rəisi vəzifəsinə təyin olunub, 2024-cü ilin 16 fevralında Nazirlər Kabinetinin yeni tərkibində Milli Arxiv İdarəsinin rəisi vəzifəsinə yenidən təsdiq edilib. Beləliklə, Əsgər müəllim böyük şərqşünas alim, türkoloq-ədəbiyyatşünas, pedaqoq olmaqla yanaşı, həm də son on ildən artıq bir dövrdə mədəni irsimizin və yazılı yaddaşımızın saxlanc yeri olan Azərbaycan dövlət arxivlərinə, onun çoxsaylı kollektivinə rəhbərlik edir. O, arxiv işinin inkişafına, cəmiyyətdə lazımi səviyyədə tanıdılmasına, mədəniyyət sərvətlərimizin etibarlı mühafizəsi və istifadəsi işinə öz fədakar əməyi ilə böyük töhfələr verir. Onun rəhbərliyi ilə Azərbaycan arxivi dinamik inkişaf edir, daha da zənginləşir, xalqın maariflənməsində, vətənpərvərlik ruhunun yüksəldilməsində, elmimizin inkişafında, dövlətçiliyimizin möhkəmləndirilməsində fəal iştirak edir.

Əsgər müəllimin rəhbərliyə başladığı ilk dövrlərdən mədəniyyət sərvətlərinin toplanılması, mühafizəsi, onlardan səmərəli istifadə olunması, habelə arxivlərin yeni dövrün çağırışlarına uyğun modernləşdirilməsi, arxivçi əməyinin nüfuzunun artırılması istiqamətində gördüyü işlər, hazırladığı layihələr bu gün real nəticələr verməkdədir. Rəhbərlik etdiyi kollektivin yaşlısından cavanına kimi hər bir üzvünün qəlbini duyan, onun bilik və bacarığına yüksək dəyər verən Əsgər müəllim ölkəmizdə arxiv işinin məzmununun beynəlxalq təcrübəyə uyğun yenidən qurulmasına başlayıb. Qısa müddətdə dövlət arxivlərimizdə mühafizə olunan arxiv fondlarının məzmunu və tərkibi barədə məlumatların onlayn əldə edilməsi üçün elektron platformanın yaradılmasına nail olub. Onun təşəbbüsü ilə arxivçi kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların yerli və beynəlxalq səviyyəli təlimlərə cəlb edilməklə ixtisaslarının artırılması istiqamətində səmərəli nəticələr əldə olunub. Təcrübəli pedaqoq-alim və həssas rəhbər kimi insanların daxili aləmini duyan, onun potensialını obyektiv qiymətləndirməyə üstünlük verən Əsgər müəllim bu gün dövlət arxivlərimizdə işgüzar bir mütəxəssis korpusunu formalaşdırıb.

Dövlətimizə və dövlətçiliyimizə sadiq Əsgər müəllim rəhbərlik etdiyi qurumun bütün imkan və gücünü səfərbər edərək Azərbaycan arxivinin gələcək inkişaf arxitekturasını hazırlayıb. Onun rəhbərliyi ilə hazırlanmış "Azərbaycanda arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı" ölkə başçımız cənab İlham Əliyevin 2020-ci il 12 fevral tarixli 1815 nömrəli Sərəncamı ilə təsdiqlənib. Dövlət Proqramı Azərbaycan dövlət arxivlərinin inkişaf strategiyasını, gələcək yol xəritəsini müəyyən etdi. Proqramda ölkəmizdə arxiv işi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, dövlət arxivlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr və strukturun təkmilləşdirilməsi, yeni texnoloji nailiyyətlərdən istifadə etməklə Milli arxiv fondu sənədlərinin mühafizəsi və səmərəli istifadəsi işinin təşkili, arxiv işi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi kimi istiqamətlər əsas götürülüb. Əsgər müəllimin bilavasitə rəhbərliyi və yüksək təşkilatçılığı ilə mədəni irsimizin tərkib hissəsi olan arxiv sənədlərinin mühafizəsi, toplanılması və istifadəsi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi sahəsində mühüm işlər həyata keçirildi. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklərin edilməsi haqqında, habelə digər əlaqəli qanunlarda edilən dəyişikliklər elmi-tarixi əhəmiyyətə malik arxiv fondu sənədlərinin mühafizəsi, istifadəsi, elektron nüsxələrinin yaradılması, hüquqi və fiziki şəxslərə göstərilən dövlət arxiv xidmətlərinin keyfiyyət indeksinin yüksəldilməsinə, xidmətin rasionallığına, şəffaflığa və vətəndaş məmnunluğunun təmin edilməsinə hüquqi əsas yaratdı.

Rəhbərlik etdiyi kollektivdə çalışan hər bir işçinin qayğıları ilə maraqlanan, onlara qarşı həssaslığı, səmimiliyi, diqqətcilliyi və qayğıkeşliyi ilə seçilən Əsgər müəllim əməkdaşların sosial rifahını düşünür. Müasir idarəetmə əsaslarına uyğun olaraq işçilərin əməyinin stimullaşdırılması, uğurlu nəticələrə motivasiyası məqsədilə yeni həlli yolları arayır və bunun üçün mükəmməl normativ hüquqi baza formalaşdırılmasını təmin etmək üçün səy göstərir.

Türkiyə Respublikasında diplomatik orqanlarda çalışarkən əldə etmiş olduğu böyük təcrübə Əsgər müəllimin rəhbərlik etdiyi qurumun beynəlxalq əlaqələrinin inkişaf etdirilməsinə imkan verir. Son bir neçə ildə Milli Arxiv İdarəsinin əməkdaşlıq etdiyi ölkələrin sayı daha da artıb. Milli Arxiv İdarəsi ilə Finlandiya, Macarıstan, Özbəkistan və digər ölkələrin arxiv təşkilatları arasında əməkdaşlıq sazişləri imzalanıb, həmin ölkələrlə ikitərəfli əməkdaşlıq münasibətləri yeni mərhələyə qədəm qoyub. Əsgər müəllimin təşəbbüsü ilə Turkiyə, Özbəkistan, Qazaxıstan və Rusiya Federasiyası dövlət arxivlərindən xalqımızın tarixi ilə bağlı minlərlə sənəd ölkəmizə gətirilərək dövlət qeydiyyatına alınması təmin edilib.

O, dövlət arxivlərinin texniki infrastrukturunun möhkəmləndirilməsi, sənədlərin saxlanması və işçilərin iş şəraitinin yaxşılaşdırılması istiqamətlərini daimi diqqətdə saxlayır və bu sahədə yeni uğurlu nəticələr əldə edir. Arxiv binalarının əsaslı təmiri, avadanlıqların yenilənməsi, mühafizəxanaların həcminin və sənəd tutumunun genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər görülür. Onun təşkilatçılığı ilə dövlət arxivlərimizə on minlərlə yeni sənəd qəbul edilərək Milli arxiv fondunun məzmun və tərkib etibarilə daha da zənginləşməsi təmin olunub.

Əsgər müəllimi rəhbər olaraq fərqləndirən əsas cəhətlərdən biri də onun arxiv sənədlərindən istifadə işinə xüsusi həssaslıqla yanaşmasıdır. O, yüksək mənəvi və insani keyfiyyətləri ilə daim milli irsimizin öyrənilməsi təbliğini özünün həyat qayəsinə çevirmiş şəxs kimi, arxiv sahəsində də bu şərəfli missiyanı davam etdirir. Əsgər müəllim elmi-pedaqoji fəaliyyəti ilə bağlı çoxsaylı sanballı əsərlərin müəllifidir. O, Azərbaycan və rus dillərində yazdığı "Türk dili" dərsliyi və dərs vəsaitinin, "Türk sənədli-bədii nəsri", "Tərcümə nəzəriyyəsi müstəvisində Türkiyə türkcəsi və Azərbaycan dili", "Tərcümə nəzəriyyəsi və təcrübəsi", "Türkcə -azərbaycanca yalançı ekvivalentlər lüğəti", "Türkcə-rusca-azərbaycanca dilçilik terminləri lüğəti" kimi monoqrafiya, kitabların, 15 fənn proqramının, ölkəmizdə və xaricdə nəşr edilən 200-dən artıq elmi, ədəbi-tənqidi və publisistik məqalənin müəllifidir.

Arxiv sahəsi onun elmi yaradıcılığında yeni bir istiqamət təşkil edir. Əsgər müəllimin müəlliflərindən biri olduğu "Azərbaycan Respublikasında arxiv işi", "İzahlı arxiv terminləri lüğəti" kitabları ölkəmizdə arxiv quruculuğu tarixinin, arxiv işinin təşkili və inkişafı, arxiv sahəsində istifadə edilən terminlər və anlayışlar barədə bilik əldə etmək istəyənlər üçün dəyərli mənbə oldu. Onun bilavasitə rəhbərliyi və məsul redaktorluğu ilə arxiv sənədləri əsasında hazırlanan çoxsaylı elmi məlumat kitabları ("Tarixi yaddaşımızın saxlanc yeri" (2016), "Azərbaycan Xalq Cümhuriyyəti qurucuları" (2018), "Hippokrat andı içənlərin arxiv sənədləri" (2020), "XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakı şəhərində mədəniyyətin inkişaf tarixindən səhifələr" (2022), "Milli geyimlərimiz arxiv yaddaşında" (2022), "Heydər Əliyev: 100 il 100 fotosənəddə"(2022) və s.) arxiv materiallarında əks olunan ictimai-siyasi və mədəni əhəmiyyət kəsb edən məlumatların təbligi baxımından xüsusi əhəmiyyət daşıyır. Əsgər müəllim ədəbiyyat, mədəniyyət, teatr, kino, musiqi xadimlərinin, neftçi, kimyaçı, bioloq alimlərinin şəxsi mənşəli sənədləri haqqında silsilə göstəricilərin, foto-fotosənəd toplularının ön sözlərinin müəllifi, elmi redaktoru və rəhbəri olub. Arxiv materialları əsasında gerçək tariximizi və tarixi şəxsiyyətlərimizi, milli mədəniyyətimizi və adət-ənənələrimizi özündə əks etdirən, geniş auditoriyaya çatdırılmasını hədəf seçən bu sanballı elmi nəşrlər yetişməkdə olan gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyələnməsinə və maariflənməsinə xidmət edir.

Əsgər müəllimin dövri mətbuatda Azərbaycan arxivlərinin fəaliyyəti, inkişaf perspektivləri ilə bağlı çoxsaylı məqalələri çap olunub. Onun həmmüəllifi olduğu "Heydər Əliyev və Azərbaycan arxivi" adlı elmi məqaləsində Azərbaycan arxivinin inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolu, onun arxiv işinə, arxivçilərin əməyinə verdiyi yüksək qiymət haqqında danışılır, milli tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin mahir bilicisi olaraq Heydər Əliyevin bizlərə miras qoyduğu irsin daimi öyrənilməsinin vacibliyi bir daha vurğulanır.

Yekun olaraq qeyd edək ki, Əsgər müəllimi ziyalı və rəhbər kimi fərqləndirən bir xüsusiyyəti də, işçilərin sevincli və kədərli günlərində onların yanında olması, qayğıları ilə maraqlanması və lazımi köməklik göstərməsidir. Bu onun həssaslıq, qayğıkeşlik kimi yüksək insani keyfiyyətlərindən qaynaqlanır və Əsgər müəllimin xeyirxah, səmimi, dəyişməz xarakterə malik böyük ziyalı olduğunu bir daha təsdiq edir.

**Biz 70 yaşına qədəm qoyan Əsgər müəllimə Azərbaycan arxivçiləri adından xalqımız, dövlətimiz və arxiv işimiz naminə möhkəm cansağlığı, uzun ömür və uğurlar arzulayırıq.**

**Həsən Həsənov,**
**Azərbaycan Respublikası**
**Milli Arxiv İdarəsinin rəis müavini**

# Fransa Ermənistanı yeni müharibəyə hazırlayır

## Azərbaycanın Avropadakı partnyorları, strateji tərəfdaşları Parisin çirkin oyunlarına dur deməlidir

**Emmanuel Makronun rəhbərliyi ilə Fransa hökuməti regionumuzdakı mövcud reallıqları düzgün qiymətləndirmir və Azərbaycana təsir etmək üçün müxtəlif qərarlar qəbul edir.**

Həmçinin beynəlxalq təşkilatlarda ölkəmiz əleyhinə qətnamələrin qəbul olunmasına çalışır. Paris Ermənistanı silahlandırdığını, açıq dəstək verdiyini etiraf edir.



Bütün bunlar Cənubi Qafqazda olmağa cəhd edən Fransanı əksinə, regiondan daha çox uzaqlaşdırır. Fransa ölkəmizə qarşı məkrli siyasət aparmaqla Mərkəzi Asiya ölkələri ilə əlaqə qurmaq imkanlarından da məhrum olur. Xatırladaq ki, rəsmi Paris 1990-cı illərdə Ermənistan-Azərbaycan münasibətlərində daha çox bitərəf davranırdı. Lakin Azərbaycanın torpaqlarını işğaldan azad etməsi ilə vəziyyət kökündən dəyişdi və Fransanın əsl siması ortaya çıxdı. Fransa bu gün Azərbaycanla təhdid, şantaj dili ilə danışmaqla, regionda sülhün əldə edilməsinə mane olur. Ermənistanı silahlandırmaqla nəyəsə nail ola biləcəyini düşünür. Halbuki Prezident İlham Əliyev də dəfələrlə bəyan edib ki, "Azərbaycanla kimsə təhdid, şantaj dili ilə danışa bilməz". Bizə təzyiq edən qüvvələrin məkrli siyasətini ifşa etmək imkanlarımız çoxdur. Ona görə də Fransanın Afrikada, Korsikada, Mayot adalarında, Yeni Kaledoniyada etdikləri rəzillikləri bütün dünyanın diqqətinə çatdırırıq. Ermənistan Fransanın Cənubi Qafqazda neokolonializm siyasəti yeritməsi üçün bir vasitə olub. Başqa bir ölkənin forpostundan çıxmağa çalışaraq Fransanın təsirinə düşüb. Bütün bunlar Ermənistan üçün yaxşı nəsə vəd etmir. Ermənistan başına gələnlərdən özü üçün böyük dərs çıxarmalıdır. Müharibədən əvvəl də, həmin müddətdə də Ermənistanı dəstəkləyən, silahlandıran ölkələr var idi, amma onu məğlubiyyətdən qurtara bilmədilər. Fransanın müdafiə nazirinin "biz Ermənistanı Azərbaycana qarşı silahlandırırıq" deməsi Ermənistanı açıq şəkildə yeni təxribata çəkməkdir. Şübhəsiz, bizə qarşı real təhlükə yarandığını görsək, o təhlükəni istənilən nöqtədə məhv edəcəyik.

**Millət vəkili Naqif Həmzəyev "Şərq"ə açıqlamasında deyib ki, uzun müddətdir Fransa açıq şəkildə Ermənistanı silahlandırır və yeni müharibəyə hazırlayır. Deputatın sözlərinə görə, xüsusilə Paşinyanın Fransaya səfəri, daha sonra Makronun "Ermənistana silah yardımlarını davam etdirəcək" sözü bunu sübuta yetirdi:**

"Fransanın müdafiə nazirinin Ermənistana səfəri zamanı İrəvanda verdiyi hədsiz və sərsəm bəyanatlar qəbuledilməzdir. Çox təəssüflər olsun ki, hələ 44 günlük Vətən müharibəsinin gedişində və ondan sonrakı ilk bir il ərzində də Fransa başqa formada Ermənistanı dəstəkləyirdi. Sanki Ermənistandan çox erməni mövqeyi ortaya qoyurdu. Buradan aydın görünür ki, danışıqlar prosesinin yubanması əsas günahkarı və səbəbkarı Makron hökumətidir. Sülhə yaxın olduğumuz bir zamanda, xüsusilə Azərbaycanın suverenliyini həll etdiyi bir dönəmdə Ermənistanı aktiv şəkildə silahlandırmaq faktiki olaraq Ermənistanı yenidən Azərbaycana qarşı müharibəyə hazırlamaqdır. Digər səbəb Rusiyanı Ermənistandan sıxışdırıb çıxartmaq və boşalan yeri doldurmaqdır".

**Parlament üzvünün sözlərinə görə, Fransa Ermənistanda möhkəmlənmək, Ermənistanda Rusiyanın yerini doldurmaq və Ermənistanı tam nəzarətinə götürmək istəyir:**

"Bu baxımdan region dövlətləri - Rusiya və İran Ermənistanın təhlükəli addımlarını qətiyyən bağışlamayacaqlar. Fransanın maraqları İran və Rusiyanın strateji maraqlarına ziddir. Prezident bir neçə dəfə bu səpkidə açıqlamalar verib. Açıq vurğulanıb ki, əgər Azərbaycana qarşı təhdidlər və hücum xarakterli silahların təmin edilməsi prosesi kütləvi hal alarsa, bunun cavabı mütləq veriləcək. Fransanın bu bəyanatlardan sonra aktiv şəkildə Ermənistanı silahlandırması regionda yenidən münaqişənin alovlanmasına xidmət etməkdədir. Qərb dairələri, xüsusilə də Azərbaycanın Avropadakı partnyorları, strateji tərəfdaşları Fransanın bu çirkin oyunlarına dur deməlidir. Beynəlxalq ictimaiyyət Fransanı həyata keçirdiyi bu təxribat xarakterli siyasətdən uzaqlaşmağa çağırmalıdır".

**İsmayıl Qocayev**

# Putin Qərbdən gözlənilən təxribat riskindən ehtiyatlanır

## Əgər o, qarşıdakı prezident seçkilərini qazanarsa, Cənubi Qafqaz siyasətinə yenidən dönəcək

**Ukrayna ilə müharibənin Rusiya prezidenti Putinin hakimiyyətini sarsıdacağını və onun 2024-cü il seçkilərində yenidən prezident seçilə biməyəcəyini gözləyən Qərb strateqlərinin proqnozları özünü doğrultmadı.**



Rusiyada martın 17-də prezident seçkisi keçiriləcək və fövqəladə hadisə baş verməzsə, Putin yenidən prezident seçiləcək. Qərb isə seçkilərin nəticəsini tanımayacağını öncədən elan edib. Rusiyada müxalif siyasətçi A.Navalnının həbsxanada ölümünə reaksiyalar bir daha təsdiqlədi ki, Putinə qarşı təşkilatlanmış narazılıq yoxdur və hökumət ictimai etirazların dərhal yatırılmasına hazırdır.

**Politoloq Elxan Şükürlü bildirib ki, Rusiya hakimiyyətinin qarşıdakı günlərdə Qərb xüsusi xidmət orqanları tərəfindən hansısa irimiqyaslı təxribatların təşkil ediləcəyini gözlədiyi açıq şəkildə diqqət çəkir. Ekspertin sözlərinə görə, Putinin fevralın 12-ə Türkiyəyə planlaşdırılan səfərinin Rusiyadakı seçkilərdən sonraya ertələnməsi də məhz Qərbdən gözlənilən təxribat riskinin bu aralıqda artmasıyla bağlıdır:**

"Hazırda Qərb-Rusiya qarşıdurmasının daha bir önəmli cəbhəsindən - Cənubi Qafqazdan və Ermənistanın Paşinyan hökuməti üzərindən də, eynilə Ukrayna ssenarisinə oxşar şəkildə, təhrikedici addımlarla Putinin təxribata çəkildiyini müşahidə edirik. Sanki Paşinyan hökuməti əlindən gələn hər şeyi edir ki, Rusiya Ermənistana da hücum çəksin. 5 aylıq sükutdan sonra Ermənistan-Azərbaycan şərti sərhədində atəşkəsin müntəzəm şəkildə pozulması, Paşinyanın KTMT-ni nüfuzdan salan bəyanatlarını artırması, Fransa ilə əməkdaşlıq çərçivəsində NATO silah sistemlərinin KTMT üzvü Ermənistana verilməsi və hətta Zelenskinin belə Ermənistana səfərinin planlaşdırılması koordinasiyasını Qərb xüsusi xidmət orqanlarının həyata keçirdiyi hərbi-siyasi əməliyyatlardır. Əsas məqsəd də Putini Rusiya üçün həyati əhəmiyyətli daha bir dəhlizdə vaxtından qabaq döyüşə çəkmək, həm Ermənistan, həm də Gürcüstanın Qərbyönümlü rəhbərlərinin çağırışıyla NATO qüvvələrinin bu ölkələrə sürətli yerləşməsini təmin etməkdir. Qərbdə çox yaxşı bilirlər ki, martın 17-də Rusiyada prezident seçkiləri, martın 31-də isə Türkiyədə bələdiyyə seçkiləri keçirildikdən sonra Putin Ərdoğanla birgə əsas diqqətini Cənubi Qafqaza yönəldəcək".

**Analitikin fikrincə, Rusiya Ermənistanı və Gürcüstanı Avropa İttifaqı və NATO-ya aparmaq istəyən Paşinyan və Zurabişvili hakimiyyətləri ilə haqq-hesabını birdəfəlik çürütməlidir ki, cənub sərhədlərini NATO təhlükəsindən qoruya bilsin:**

"Əgər Rusiya Ukraynanın ardınca Cənubi Qafqazda da uğur qazansa, bu, hakimiyyətdə olduğu 4 il müddətində Putin və Ərdoğanı yıxacağını vəd etmiş qlobalist Baydenin nüfuzuna böyük zərbə vuracaq. Həm də 2024-cü ildəki ABŞ seçkilərinin də taleyini həll etmiş olacaq və çoxqütblü dünya tərəfdarı olan Trampın prezidentliyə yolunu açacaq".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**




# Ermənistanın insanlıq əleyhinə cinayətləri hər addımda üzə çıxır

## Vaxtilə Qarabağda yuva salmış erməni separatçıları beynəlxalq Haaqa Məhkəməsinə çıxarılmalıdır

**Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz şanlı qələbə qazanaraq 30 illik işğala son qoyduğu tarixdən etibarən dünənədək erməni vəhşiliklərini görməzdən gələnlər də bu vandallığa şahid oldular. Erməni vandallığının sübutu təkcə dağıdılan, viran edilən şəhərlər, kəndlər deyil, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlardır.**

Və bu məzarlıqların sayı getdikcə artır. İşğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq işləri aparıldıqca, erməni vəhşiliyinin ən böyük sübutlarından biri olan mülki şəxslər əleyhinə minalar torpağın bağrından sökülüb atıldıqca, kütləvi məzarlıqlar, insan sümükləri qalıqları da üzə çıxır. İşğaldan azad edilmiş Qarabağ və ətraf bölgələrdə indiyə qədər 13 kütləvi məzarlıq aşkarlanıb, kütləvi insan qırğınları törətmiş Ermənistan hökuməti isə məzarlıqların yerini bildirməkdən də imtina edir, necə ki mina xəritələri hələ də Azərbaycana təhvil verilməyib.

Xocalı soyqırımının 32-ci ildönümü ərəfəsində daha bir kütləvi məzarlıq aşkarlandı. Azərbaycan Respublikası Baş Prokurorluğunun Xocalıda aşkar edilən kütləvi məzarlıqla bağlı yaydığı məlumatda qeyd edilir ki, işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması barədə fevralın 21-də Xocalı rayon prokurorluğuna məlumat daxil olub: ”Baş Prokurorluğun peşəkar əməkdaşları hadisə yerinə ezam olunmaqla, Səhiyyə Nazirliyinin ”Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi” Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərək aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib. Hazırkı vaxtadək keçirilən prosessual hərəkətlər nəticəsində ərazidə aşkarlanmış insan qalıqlarının ən azı 4 nəfər (onlardan 1 nəfərin azyaşlı, yəni 4-5 yaşlı şəxsə məxsus olması ehtimal edilir) şəxsə məxsus olması, onların işgəncələrə məruz qalması, əllərinin kəndirlə bağlanması və xüsusiyyətlərinə görə ən azı 25 il əvvəl basdırılması müəyyən edilib”. Qeyd olunub ki, hazırda hadisə yerinin tam müayinə edilməsi istiqamətində işlər davam etdirilir. Faktla bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır. Axtarış işləri tam yekunlaşdıqdan və müavfiq ekspertiza nəticələri müəyyən olunduqdan sonra ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.

Bu fakt Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətlərin növbəti bariz nümunəsi və təsdiqidir. Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sosial şəbəkə hesabında yazıb ki, bəlkə də bu, ilahi ədalətdir ki, 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımının növbəti ildönümündə bu adsız və günahsız mülki qurbanların qalıqları tapılıb: ”Onların kimliyi DNT analizi ilə müəyyən ediləcək. Ermənistanın hərbi təcavüzü nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşmüş hesab olunur. Ermənistan kütləvi şəkildə qətlə yetirilən azərbaycanlıların dəfn olunduğu belə kütləvi məzarlıqların yeri barədə məlumat verməkdən imtina edir. Dövlətin beynəlxalq hüquqa zidd olan hər bir hərəkəti beynəlxalq hüquqa uyğun olaraq həmin dövlətin beynəlxalq məsuliyyətinə səbəb olur. Ermənistan Respublikası Xocalı soyqırımına və Azərbaycana qarşı törədilmiş digər qanunsuz hərəkətlərə görə dövlət məsuliyyətini daşıyır. Ermənistan Respublikası 30 illik hərbi işğala və xüsusilə də Xocalı soyqırımına görə Azərbaycan xalqından və dövlətindən hələ də üzr istəməyib”.

Ümumiyyətlə, 1988-ci ildən başlayaraq Qarabağda qanunsuz fəaliyyət göstərən erməni silahlı hərbi birləşmələri və Ermənistan Respublikasının Silahlı Qüvvələri azərbaycanlı əhalinin qanuni yerləşdiyi yerlərdən məcburi hərəkətlərlə didərgin salınması, yaşayış məntəqələrində və dövlət obyektlərində maddi sərvətlərin, mədəniyyət abidələrinin talanması və dağıdılması, azərbaycanlı əsir və girovlara dəhşətli işgəncələr verilməsi, beynəlxalq humanitar hüquqla mühafizə olunan mülki və digər şəxslərlə amansız rəftaretmə, azərbaycanlıları milli bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürməklə soyqırımı, deportasiya, işgəncə və s. sülh və insanlıq əleyhinə cinayətlər, habelə qəsdən adam öldürmə, təxribat, terrorizm və başqa xüsusilə ağır cinayət hadisələri törədiblər. Ən böyük qətliam 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verib. Orada girov götürülən 1275 nəfərdən 150-yə yaxınının taleyi bu günədək məlum deyil. Bundan başqa, 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunun Ağdaban kəndində 67 sakini işgəncələrlə qətlə yetirib, 2 nəfərin taleyindən isə indiyədək xəbər yoxdur. Həmçinin 2022-ci il Kəlbəcər rayonunun Ballıqaya ərazisində kütləvi məzarlıq aşkar edilib və daha belə bir yer Şuşanın Daşaltı kəndində tapılıb. İnsanlıq əleyhinə cinayətlərdən biri də Kəlbəcər rayonunda ”Tunel” adlanan ərazidə 1993-cü il martın 31-də törədilib. 82 nəfərin 50-dən çoxu diri-diri yandırılıb, 31 nəfər girov götürülüb.

**Aşkarlanan kütləvi məzarlıqlar və Ermənistanın bəşəriyyət əleyhinə törətdiyi cinayətlərə görə mütləq mühakimə olunacağını bildirən hüquq müdafiəçisi, Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, cinayətkar dövlətin ədalət məhkəməsi qarşısında dayanması üçün bütün dəlil və sübutlar Beynəlxalq Cinayət Məhkəməsinə (Haaqa Məhkəməsi) təhvil verilir:**

- Ermənistan dövləti və vaxtilə Qarabağda yuva salmış erməni separatçıları alman faşistləri kimi beynəlxalq Haaqa Məhkəməsinə çıxarılmalıdır. Onların 30 il müddətində Azərbaycanın suveren ərazisi olan Qarabağ və ətraf bölgələrdə törətdiyi cinayətlər təkcə azərbaycanlılara qarşı deyildi, bütün bəşəriyyətə qarşı idi. Məsələ təkcə insan tələfatıyla məhdudlaşmır. Onların törətdiyi milli, irqi ayrı-seçkilik, soyqırımı, maddi-mənəvi sərvətlərin məhv və talan edilməsi kimi bəşəri cinayət əməlləridir. Bunu da qeyd etməliyəm ki, Azərbaycanın insan hüquqları üzrə ombudsmanı İkinci Qarabağ müharibəsi dövründən başlayaraq, Azərbaycana qarşı Ermənistan tərəfindən törədilən cinayətlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması istiqamətində geniş fəaliyyət həyata keçirir, bu mövzu ilə əlaqədar hesabatlar hazırlayaraq insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlara ünvanlayır. Bu hesabatlar İnsan hüquqları üzrə müvəkkilin 2023-cü il üzrə məruzəsində əksini tapıb. 2023-cü ildə bu fəaliyyətin davamı olaraq, Ombudsman tərəfindən Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətlər və beynəlxalq hüququn pozulması faktlarını özündə ehtiva edən 3 geniş hesabat hazırlanaraq yerli ictimaiyyətin və aidiyyəti beynəlxalq təşkilatların diqqətinə çatdırılıb. Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş cinayətlərin, eyni zamanda beynəlxalq humanitar hüququn pozulması hallarının sübutu olan kütləvi məzarlıqların aşkarlanması faktları nəzərə alınaraq, Ombudsmanın Xocavənd rayonunun Edilli kəndində tapılan kütləvi dəfn yerləri ilə bağlı xüsusi hesabatı hazırlanıb, yerli və beynəlxalq ictimaiyyətə təqdim olunub. Həmin hesabatda azərbaycanlılara məxsusluğu təsdiq olunmuş insan qalıqlarının qeyri-insani formada dəfn edilməsinə dair müstəqil yerində araşdırmanın nəticələri, çoxsaylı fotosübutlar yer alır, eyni zamanda beynəlxalq hüququn bu sahəyə aid tələbləri ilə bağlı məlumatlar öz əksini tapır. İtkin düşmüş soydaşlarımızın taleyinə aydınlıq gətirilməsi, sağ qalanların Azərbaycana təhvil verilməsi, qətlə yetirilənlərin isə kütləvi dəfn olunduğu yerlər barədə məlumatların təqdim edilməsi, həmçinin mina basdırılmış ərazilərin dəqiq xəritələrinin verilməsi və Ermənistan hərbi-siyasi rəhbərliyi ilə bağlı hüquqi məsuliyyət tədbirlərinin görülməsi üçün qəti mövqe göstərilməsi ilə bağlı dünya ictimaiyyətinə çağırış ünvanlanıb.

**S.Bənənyarlı qeyd etdi ki, bundan əvvəl Əsgəran qalasının yaxınlığında aşkarlanmış kütləvi məzarlıqda ən azı 8 insan qalığının olması ehtimal edilir:**

- Kütləvi məzarlıq aşkarlandıqda müvafiq qurumların nümayəndələri əraziyə baxış keçirdilər. Lazımi sübutlar toplandı. Qeyd edim ki, Azərbaycanın ötən il Qarabağda apardığı lokal xarakterli antiterror tədbirləri zamanı ələ keçirilən, 1990-cı illərin əvvəllərində Qarabağ bölgəsində fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin üzvü olan Beqlaryan Rəşid Aramayisi dindirilərkən 1992-ci ilin fevral ayında dinc Xocalı sakinlərinin qətlində iştirakçı olmasını və hadisələr zamanı 8 nəfər azərbaycanlının qətlə yetirildiyini, orada özünün də iştirakçı olduğunu etiraf edib. İstintaq olunan cinayət işi çərçivəsində, Rəşid Beqlaryan qətlə yetirilən günahsız insanların Əsgəran qəsəbəsində, Qarqar çayının sol sahilində, Əsgəran qalasının ətrafında basdırıldığını etiraf edib. Aşkar edilən kütləvi məzarlığı yerli media nümayəndələri ilə yanaşı Serbiya, Türkiyə, Mərakeş, Peru, Uruqvay, Özbəkistan, Bosniya, Rusiyadan olan 35 nəfər xarici media nümayəndələri də ziyarət etmişdi. Yəni Ermənistan dövlətinin insanlıq əleyhinə cinayətləri hər addımda üzə çıxır. Ermənistan hökumətinin rəhbərliyində təmsil olunan cinayətkarlarsa kütləvi məzarlıqların yerini bildirməməklə, mina xəritələrini Azərbaycana təhvil verməməklə cinayətkar əməllərini davam etdirirlər.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# 20 günlük məzuniyyət...

Ombudsmanın təklifi təqdirəlayiq haldır

**Azərbaycanda əsgərlərə 20 günlük məzuniyyətin verilməsi təklif edilir.**

Bu, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb. Belə ki, Ombudsman tərəfindən ”Hərbi qulluqçuların statusu haqqında” qanunun 11-ci maddəsinə əsasən, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına bir dəfə verilən qısamüddətli 10 günlük məzuniyyətin, hər birinin müddətinin 10 gün olmaqla 2 dəfə verilməsi təklif edilir.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, hazırda bu təklifin reallaşdırılması mümkündür:**

”Bildiyiniz kimi, Azərbaycanda həqiqi xidmət müddəti 1 il 6 aydan ibarətdir. Birinci il ərzində, yəni əsgər 6 ay müddətdən sonra 10 gün, ikinci ildə isə növbəti 10 gün evə buraxılması ordumuzun döyüş hazırlığı səviyyəsinə mənfi təsir etməz. Ombudsmanın bu təklifi səsləndirməsini təqdirəlayiq hesab edirəm. Ümid edirəm ki, tam müzakirələrdən sonra sözügedən istiqamətdə müsbət qərar qəbul olunar”.

**Nəzrin**

# Ukraynada savaş bitənə qədər Saakaşvili azad olunmayacaq

## Gürcüstan rəhbərliyi Putinin şəxsi düşmənini azadlığa buraxmağa risk etməz

**Mixail Saakaşvilinin əfv edilib-edilməməsi ilə bağlı qərar Gürcüstan prezidentinin mənəvi məsuliyyətidir və buna heç kim təsir edə bilməz.**

Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili deyib.

”Mən bu məsələyə münasibət bildirmirəm. Bu, özümün verəcəyim və buna görə də özümə cavabdeh olacağım mənəvi qərardır. Bu, xarici və ya daxili təzyiqin təsir edə biləcəyi bir məsələ deyil”, - Zurabişvili bildirib.

Prezident bununla yanaşı bildirib ki, Saakaşvili real səbəblərdən həbs edilib: ”Bu o demək deyil ki, biz humanitar perspektivi nəzərə almamalı və ona hörmət etməməliyik. Həbsxanada onun başına gələnləri çox diqqətlə izləyirdim. Razıyam ki, reputasiya baxımından onun başqa yerdə yerləşməsi daha yaxşı olardı. Bu, hökumətin verməli olduğu bir qərardır. Digər ölkələrin istifadə etdiyi bir çox imkanlar var - ev dustaqlığı, ekstradisiya. Ukrayna ekstradisiyaya hazır olduğunu bildirdi, amma bunun nə dərəcədə rəsmi olduğunu bilmirəm. Beləliklə, imkanlar var”.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan politoloq Azər Rəşidoğlu bildirib ki, Ukrayna müharibəsi bitənə qədər Saakaşvilinin azad edilmə ehtimalı azdır:**

”Rəsmi Tbilisi Putinin şəxsi düşmənini azadlığa buraxmağa risk etmir. ”Mişa”nı Kreml girovluqda saxlayır. Onun həbsdə çürüdülməsinin əsas müəllifi Putindir. Lakin Saakaşvili artıq Rusiya üçün təhlükə deyil. Amma Putinin qüruru bu böyük siyasətçini məhv edir. Bu gün Gürcüstanda gənc nəsil Mixail Saakaşvilini tanımır, yaşlı nəsil isə hesab edir ki, ”Mişa” hakimiyyətə qayıdarsa, Gürcüstan Rusiya ilə qarşıdurmaya gedəcək. Bu isə ölkədə vətəndaş toqquşmasına səbəb ola bilər. Əslində, Mixail Saakaşvili dövrünün bitməsi də Moskva-Tbilisi münasibətlərini keçmişdəki kimi ”isti məcraya” qaytara bilmədi. Əksinə, Ukraynada baş verənlər onu deməyə əsas verir ki, Qərb MDB məkanına növbəti dəfə təsir etmək istəyir. Qərbin Gürcüstanda həyata keçirdiyi ”Saakaşvili layihəsi” uğurlu oldu. Qısa bir müddət ərzində ölkədəki korrupsiyaya son qoyan Saakaşvili, işsizlik problemini həll etməklə yanaşı, dövlətin uzun illərdən bəri əhaliyə olan əməkhaqqı borclarını ödəyə bildi. Bir sözlə, Saakaşvili bir örnək idi. Qərblə inteqrasiyanın



üstünlüklərini MDB məkanına göstərmək üçün həyata keçirilən bir layihə olub”.

**Ekspert onu da söyləyib ki, 2003-cü ilin noyabr ayında minlərlə insan parlament seçkilərinin saxtalaşdırılmasına etiraz olaraq küçələrə çıxdı:**

”Həmin vaxt özünün ”Vahid milli hərəkat” partiyasına başçılıq edən Mixail Saakaşvili etiraz dalğasının başında olan üç siyasi liderdən biri oldu. Parlamentin keçmiş spikerləri Zurab Jvaniya və Nino Burcanadze o vaxt Saakaşvilidən daha təcrübəli və nüfuzlu müxalifətçi siyasətçilər idilər. Bununla belə, küçədəki insanlar ”Mişa” qışqırırdılar. Məhz Saakaşvili həlledici anda saxtalaşdırma nəticəsində seçilmiş yeni qanunverici orqanın sessiyanın başlamasına mane olmaq məqsədilə, parlamentə edilən yürüşə başçılıq etdi. Digər liderlər onun arxasınca getmədi. Risk böyük idi - parlamenti xüsusi təyinatlı polislər mühafizə edirdi, tribunadan isə çoxsaylı mühafizəçilərlə əhatə olunan Şevardnadze çıxış edirdi. Amma nəticədə Şevardnadze nümayişçilərin təzyiqi altında parlament binasını tərk etdi, sonra isə istefa verdi. İnqilabın əsas liderinə çevrilən Saakaşvili 2004-cü ilin yanvar ayında Gürcüstan prezidenti seçildi.

”Mişa” bir islahatçı liderdir və korrupsiyanın qarşısını ala bilib. O, rüşvətin miqyasını azalda bildi, amma gürcülər sovet keçmişləri üçün darıxdıqları üçün sona qədər ”Mişa”nı dəstəkləmədilər. Rüşvət asan çıxış yoludur. Şevardnadze bu xalqı o qədər rüşvətə alışdırıb ki, insanlar rüşvətsiz yaşaya bilməyəcəklərini düşünürlər. Odur ki, rüşvətsiz, bürokratik əngəlsiz yaşamaq üçün sona qədər mübarizə aparmaq istəmirlər. İstənilən halda Saakaşvili bu xalqın şərəfli tarixidir. Gürcülər onu bu dərəcədə aşağılamaqla tarixə hörmətsizlik edirlər. Putinin qarşısında ”Mişa”nı bu dərəcədə alçaltmaq gürcülərə başucalığı gətirmir”.

*Qeyd edək ki, bir müddət öncə Ukrayna parlamenti Saakaşvilinin azad edilməsi ilə bağlı Prezident Salome Zurabişviliyə müraciət ünvanlamışdı.*

**Şahanə Ziyad**



## Bəzi təcridxanalarda sıxlıq müşahidə olunur

Kompleks tədbirlər problemin qarşısının alınmasında köməklik göstərəcək

**İstintaq təcridxanalarında və bəzi cəzaçəkmə müəssisələrində mövcud normadan artıq şəxsin saxlanıldığı halları müşahidə edilib.**

Bu, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb. Məruzədə qeyd olunub ki, penitensiar müəssisələrdə müəyyən edilən əsas problemlərdən biri də sıxlıqla bağlı olub. Belə ki, 2 500 nəfər üçün nəzərdə tutulmuş Bakı İstintaq Təcridxanasında başçəkmələr zamanı limitdən daha çox şəxsin saxlanıldığı müəyyən olunub. Bununla yanaşı, 700 nəfərlik 2 saylı İstintaq Təcridxanasında 800, 1 050 nəfərlik 3 saylı İstintaq Təcridxanasında 1 400 nəfərin saxlandığı, 1 200 nəfər saxlanma limiti olan 2 saylı cəzaçəkmə müəssisəsində isə 1 411 məhkumun cəza çəkdiyi müəyyən edilib.

Sual yaranır. Bəs, penitensiar müəssisələrdə sıxlığın azaldılması istiqamətində hansı tədbirlərə ehtiyac var?

**Məsələ ilə bağlı ”Şərq”ə açıqlama verən Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri, hüquq müdafiəçisi Səadət Bənənyarlı bildirib ki, hesabatda qeyd olunduğu kimi, bəzi təcridxanalarda sıxlıq müşahidə olunur:** ”Vəziyyətin aradan qaldırılması üçün isə müəyyən tədbirlər görülür. Bu addımlar islah prosesinə söykənir. Həmin məhkumlar vaxtından əvvəl şərti olaraq azad oluna bilər. Həmçinin mütəmadi olaraq Prezident tərəfindən verilən əhv fərmanları nəzərə alınaraq cəzalar yüngülləşdirilsə, ombudsmanın tədbirləri problemin həllində böyük rol oynayacaq. Doğrudur, məhbuslara taxılan elektron qolbaqlar kimi üsullarla onların cəzaları nisbətən azaldılır. Amma məhkəmə qətnamələrində də bu nüans nəzərə alınmalıdır. Əlavə olaraq, azadlığa çıxan, islah olunmuş şəxslərlə reabilitasiya dövründə danışıqlar aparılmalıdır ki, növbəti cinayətlərdə həmin insanlar təkrar iştirak etməsinlər. Bütün bu kompleks tədbirlər sıxlığın qarşısının alınmasında köməklik göstərəcək”.

**Nəzrin Vüqarqızı**

# Motivasiya yoxdur

Alimlərimiz ibtidai sinif müəllimlərindən də az maaş alır



***“İllərini elmin inkişafına həsr edən şəxslərin aldıqları maaş nə onların normal yaşayışına bəs edir, nə də yeni uğurlar qazanmasını stimullaşdırır”***

**”Azərbaycan elminin inkişafının qısa yollarından biri Türkiyənin ali təhsil müəssisələrində fəaliyyət göstərən azərbaycanlı alimlərdir”.**

Bunu elm və təhsil naziri Emin Əmrullayev AMEA-nın Ümumi yığıncağında çıxışı zamanı deyib.

Nazirin sözlərinə görə, onlar Azərbaycana gəlir, müəyyən müzakirələr edilir. Dil və məsafə yaxınlığı göstərir ki, türk ali təhsil müəssisələri ilə əməkdaşlıq vacibdir. Qısa zamanda nəticə əldə etmək istəyiriksə, buna davamlı şəkildə səy göstərməliyik.

**E.Əmrullayevin fikrincə, gənclərə vəd verməkdənsə, səlahiyyət və maliyyə verməliyik:** ”Hazırda bu zalda gənc alimlər arxada əyləşib, hesab edirəm ki, bu, elm sahəsində gənclərə münasibəti göstərir. Onları özümüzdən uzaq tutmaq Azərbaycan elmində gənclərə verilən rolun göstəricisidir. Gənclərə vəd verməkdənsə, səlahiyyət və maliyyə verməliyik”.

Nazir həmçinin qeyd edib ki, xaricdə təhsil alan gənclər artıq ölkəyə qayıdır: ”Bu mənada, onları metaforik mənada ön sıralara çəkməliyik, bundan qorxmamalıyıq. Təkcə vəd verməklə nəsə olmur. Gənc alimə ev verməkdənsə, ona elə maaş verək ki, həm özünə ev ala bilsin, həm də motivasiyası olsun”.

Nazir gənc alimlərin qərar verəcək postlarda olmasının vacibliyini vurğulayıb.

”Düşünək, nə qədər gənc alim qərar verənlərin sırasındadır? Gəlin sayaq. Görəcəyik ki, bu rəqəm çox azdır. Biz qəbul etməliyik ki, Azərbaycan elminin dünyada qəbul olunmamasının əsas səbəblərindən biri hissələrə bölünməsidir. Yəni elm istiqamətində çoxlu sayda qurumların olması vahid elmi mühitin olmaması deməkdir. Ola bilər ki, ayrılıqda hər biri keyfiyyətli və görkəmli iş görsünlər, amma bu, ayrılıqda baş verdiyi üçün alınmır. Nəticədə biz bəzən dünya reytinqlərində bu mənada son sıralarda qərarlaşırıq”.

**Nazir elmi-tədqiqat laboratoriyalarının qurulmasının vacibliyindən danışıb:** ”Təhsil naziri olduqdan bu yana müşahidə etmişəm ki, bizdə elə laboratoriyalar var ki, 1970-ci illərdə qurulub. Ola bilər, o zaman vacib olsun, yaxşı fikir olsun, amma indi onlara ehtiyac yoxdur. Bizi sanki o laboratoriyaları ləğv etmək qorxudur. Niyə qorxuruq? Səmimi deyim, şəxsən mən bilmirəm”.

**Təhsil eksperti Kamran Əsədov isə ”Şərq”ə açıqlamasında son illər elm sahəsinə yönələn gənclərin sayında kəskin azalma olduğunu deyib. Onun sözlərinə görə, əsas səbəblərdən biri isə gənc alimlərin sosial təminatının aşağı səviyyədə olması ilə bağlıdır:**

”Bu gün o gənclər elmi ixtiralar, elmi tədqiqatlarla məşğul olurlar ki, onların ailəsinin maddi durumu yaxşıdır, sosial rifahları var, ev problemləri yoxdur. AMEA-da çalışan elmi işçilər 500 manat əməkhaqqı alır. İllərini elmin inkişafına həsr edən şəxslərin aldıqları maaş nə onların normal yaşayışına bəs edir, nə də yeni uğurlar qazanmasını stimullaşdırır. Hətta bir çox alimlər ibtidai sinif müəllimlərindən də az maaş alır. Haqlı olaraq da yüksək bilik və bacarıqlara malik şəxslər elmdə qalmağa üstünlük vermir, digər sahələrdə daha yüksək əməkhaqqı ala biləcəklərinə görə elmdən gedirlər. Alimlərin bir qismi də tədrislə məşğuldur, universitetlərdə dərs deyir və sairə.

Müdafiə olunan elmi işlərə baxsanız, əksəriyyəti məmurlardır. Ya da siyasi fəaliyyətlə məşğul olan ekspertlər elmi tədqiqat işləri müdafiə ediblər. Bunun isə elmə heç bir faydası yoxdur. Dövlətin elm siyasəti elə olmalıdır ki, alim məmurlaşmasın, əksinə, məmur alimləşsin. Alim özünü bütünlükdə elmə həsr etməlidir. Alim artıq tədrislə məşğul olanda və yaxud evdə uşaq hazırlayanda sanki elmi mühitdən ayrılır. Halbuki alim elmi mühitlə yaşamalıdır”.

**K.Əsədovun fikrincə, elmi adların alınması prosesi çox vaxt və vəsait tələb edir:**

“Motivasiya yoxdur. Bu istiqamətdə dəstək baxımından konkret iş görülmür. Biz həm müəllimlərin maaş məsələsinə, həm də elmə gələnlərə müəyyən güzəştlərin edilməsinə çalışmalıyıq. Beləliklə, onların özlərini bu sahədə görmələrinə yardımçı olmaq olar. Ona görə də hesab edirəm ki, biz bu sahədə də ciddi şəkildə düşünüb, qərarlar qəbul etməliyik. Eyni zamanda bizim akademiya, universitet sistemində də bu istiqamətdə çox ciddi addımların atılmasına ehtiyac var ki, biz bu məsələləri həll edə bilək. Fikrimcə, gəncləri stimullaşdırmaq üçün alimlərin həm maaşı artırılmalı, həm də mənzil şəraiti yaxşılaşdırılmalıdır”.

**Şəymən**



## İsrail və HƏMAS savaşı bütün qırmızı cizgiləri keçib

Mahmud Abbasın indiki situasiyada proseslərə təsir etmək imkanları demək olar ki, yoxdur

**Fələstin lideri Mahmud Abbas İsrail Baş naziri Benyamin Netanyahunun ”müharibədən sonrakı Qəzza” planının prinsiplərini rədd edib və bununla bağlı xarici liderlərə və beynəlxalq təşkilatların rəhbərlərinə məktublar göndərib.**

O, məktublarında Netanyahunun prinsiplərini təhlükəli hesab etdiyini bildirib və bunun gözlənən nəticələri barədə xəbərdarlıq edib. İsrail qoşunlarının Qəzzadan tamamilə çıxarılmasını, ərzaq, dərman və gündəlik tələbat məhsulları da daxil olmaqla, humanitar yardımın artırılmasını tələb edib.

**Siyasi şərhçi Elçin Xalidbəyli ”Şərq”ə açıqlamasında vurğulayıb ki, İsrail və HƏMAS arasında gedən savaş artıq bütün qırmızı cizgiləri keçməyə başlayıb:**

”Ancaq Mahmud Abbasın indiki situasiyada proseslərə təsir etmək imkanları demək olar ki, yoxdur. Çünki Mahmud Abbas Fələstinə tam şəkildə nəzarət edə bilmir. Üstəlik də, savaşın getdiyi ərazilər HƏMAS-ın idarəçiliyi altındadır. Ancaq son məlumatlar ondan ibarətdir ki, İsrail həmin bölgədə öz nəzarətini tam təmin edənə qədər hərbi əməliyyatları dayandırmaq niyyətində deyil. Ümumiyyətlə, İsrail- HƏMAS savaşını tam dayandıra biləcək yeganə qüvvə ABŞ-dir. Çünki İsrail ABŞ ilə həm yaxın müttəfiqdir, həm də Ağ Evdən verilən təkliflərə daha həssas yanaşır. Ona görə də böyük ehtimalla Mahmud Abbasın bu məsələyə müdaxilə etməyə çalışması və yaxud da müraciət cəhdləri elə bir ciddi nəticə verməyəcək. ABŞ-nin, eləcə də bəzi nüfuzlu Qərb dövlətlərinin prosesə daha doğru, ədalətli müdaxilə etməsi nəticəsində müharibənin dayanma ehtimalı arta bilər. Lakin rəsmi Vaşinqton hələlik müharibənin dayandırılması üçün Təl-Əvivə təsir göstərməyə tələsmir. Bu baxımdan ABŞ-nin üzərinə böyük məsuliyyət düşür. Ancaq Amerika üzərinə düşən məsuliyyətin öhdəsindən gəlməkdə faktiki olaraq ya çətinlik çəkir, ya da bunu icra etməyə həvəsli deyil”.

**Fidan Həməşəyeva**

## Elanlar

Bakı şəhəri, Ak.H.Əliyev küçəsi, ev 74, mən.14, mərtəbə 4, üçotaqlı, kvadrat metri 66.0, ”Qalacıq” MTK tərəfindən Bədəlov Elxan Murad oğluna verilmiş evin Orderi itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Universitetinin 3-cü kurs tələbəsi Əliyeva Pərvanə Vilayət qızına verilmiş Tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Universitetinin 3-cü kurs tələbəsi Şıxəliyev Şıxəli Cahid oğluna verilmiş Tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Elanlar

### ”Əmlak Hərrac Mərkəzi”

**LOT1494məlumat:** ”VOLVO XC-90” minik markalı, 90-EY-099 dövlət qeydiyyat nişanlı avtomobilə dair 27 fevral 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamış və bununla əlaqədar olaraq 27.02.2024-cü il tarixli hərracın baş tutmaması barədə protokol tərtib edilmişdir.

**LOT1494** ”VOLVO XC-90” minik markalı, 90-EY-099 dövlət qeydiyyat nişanlı avtomobilə dair təkrar hərrac 19 mart 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) tarixinə təyin olunmuşdur. Əmlakın təkrar hərracda satış qiyməti 68.000 (altmış səkkiz min) manat təşkil edir.Hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 3.400(üç min dörd yüz) manat məbləğində beh ödənilməlidir.

**LOT1518:** Bərdə rayonu, Qazaxlar kəndində 0.21 ha torpaq sahəsində yerləşən, 2 otaqlı, 53.8 kv.m ümumi, 42.2 kv.m yaşayış, 11.6 kv.m yardımçı sahədən ibarət fərdi yaşayış eviaçıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 27 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 19.000(on doqquz min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 950 (doqquz yüz əlli) manat məbləğində beh ödənilməlidir.

**LOT1519:** Bərdə şəhəri, Koroğlu küçəsində yerləşən, 3 otaqlı, 103.4 kv.m ümumi, 77.7 kv.m yaşayış, 25.7 kv.m yardımçı sahədən ibarət 5/1 fərdi yaşayış evi və 0.05 ha torpaq sahəsiaçıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 27 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 30.000(otuz min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 1.500 (bir min beş yüz) manat məbləğində beh ödənilməlidir.

**LOT1516:** Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, 5-194 saylı ünvanda yerləşən fərdi yaşayış evi açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 27 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 80.000(səksən min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 4.000(dörd min) manat məbləğində beh ödənilməlidir.

**LOT1521:** Abşeron rayonu, Xırdalan şəhəri, Hikmət Aslanov küçəsində yerləşən 0.03 ha torpaq sahəsi və üzərindəki 114 saylı fərdi yaşayış evi açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 27 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 208.000(iki yüz səkkiz min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 10.400 (on min dörd yüz) manat məbləğində beh ödənilməlidir.

**LOT1520:** ”VAZ-21013” markalı, 1984-cü il buraxılışlı, XTA210130F4545741 BAN nömrəli, sedan tipli, rubin rəngli, 57-CD-777 dövlət qeydiyyat nişanlı avtomobil açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 29 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 2.800 (iki min səkkiz yüz) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni 280 (iki yüz səksən) manat məbləğində beh ödənilməlidir.

**LOT1523:** Gəncə şəhəri, Nizami rayonu, Nəriman Nərimanov prospekti 137 ünvanında yerləşən, 3 otaqlı, 160.5 kv.m ümumi, 84.8 kv.m yaşayış, 75.7 kv.m yardımçı sahədən ibarət fərdi yaşayış evi və Cabbarlı Oqtay İsmayıl oğluna məxsus Gəncə şəhəri, Nizami rayonu, Ərdəbil küçəsi 20 ünvanında yerləşən, 2 otaqlı, 54.9 kv.m ümumi, 31.6 kv.m yaşayış, 23.3 kv.m yardımçı sahədə ibarət fərdi yaşayış evi açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 27 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 137 saylı fərdi yaşayış evi üzrə 100.000(bir yüz min) manat, 20 saylı fərdi yaşayış evi üzrə 55.000 (əlli beş min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 137 saylı fərdi yaşayış evi üzrə 5.000(beş min) manat, 20 saylı fərdi yaşayış evi üzrə 2.750 (iki min yeddi yüz əlli) manat məbləğində beh ödənilməlidir.

**LOT1522:** Gəncə şəhəri, Kəpəz rayonu, Heydər Əliyev prospekti, ev 9 ünvanında yerləşən 34 saylı fərdi yaşayış evi və ”Dostluq” İstehsalat Kommersiya Firmasına məxsus Gəncə şəhəri, Nizami rayonu, Yeni-Gəncə qəsəbəsi 21 ünvanında olan 0.01339 ha torpaq sahəsi və həmin torpaq sahəsində yerləşən qeyri-yaşayış binası açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 27 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 34 saylı fərdi yaşayış evi üzrə 60.000(altmış min) manat, qeyri-yaşayış sahəsi üzrə 522.000 (beş yüz iyirmi iki min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 34 saylı fərdi yaşayış evi üzrə 3.000(üç min) manat, 20 saylı fərdi yaşayış evi üzrə 26.100 (iyirmi altı min yüz) manatməbləğində beh ödənilməlidir.

**LOT1524:** ”Saipa 132 EX” minik markalı, 2013-cü il buraxılışı, ağ rəngli, NAS421100E1140621 ban nömrəli, sedan tipli, 90-FO-434 dövlət qeydiyyat nişanlı avtomobilaçıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 27 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 400(dörd yüz) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 20(iyirmi) manat məbləğində beh ödənilməlidir

**LOT1525:** ”Mercedes-Benz E320” minik markalı, 2002-ci il buraxılışı, gümüşü rəngli, WDB2110651A165861 ban nömrəli, sedan tipli, 90-ND-799 dövlət qeydiyyat nişanlı avtomobilaçıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 27 mart 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 6.000(altı min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 300(üç yüz) manat məbləğində beh ödənilməlidir

**QEYD:**

Hərracın təyin edildiyi günə 1 (bir) iş günü qalanadək ”Əmlak Hərrac Mərkəzi” MMC-nə yaxınlaşaraq hərracda iştirak etmək üçün ərizə qoyulmalı, beh məbləği isə aşağıda göstərilən hesablaşma hesabına və ya hərracın kassasına nəğd qaydada ödənilməlidir. Hərracın qalibi ən geci 7 (yeddi) təqvim günümüddətində alış qiymətini sifarişçi İcra Şöbəsinin depozit hesabına ödəməlidir. İpoteka ilə yüklü edilmiş əmlaklarda hərrac addımı satış qiymətinin 3%-dən artıq olmamaqla, digər əmlaklarda 1%-dən çox olmamaqla təşkil edir.

**H/h:AZ87AIIB400600C9444230278103**
**Bank: Kapital bank 1 saylı Yasamal filialı**
**VÖEN - 9900003611**
**Kodu: 200037**
**M/H:AZ37NABZ01350100000000001944**
**SWIFT : AIIBAZ2XXX**
**Hərracın təşkilatçısı**
**”Əmlak Hərrac Mərkəzi” MMC**
**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Fikrət Əmirov küçəsi, 11/1**
**Əlavə məlumat üçün**
**www.birjanews.azTel: (+99450) 210-66-47; (+99451) 232-36-98**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

Təsisçi: “Şərq Media Qrup” MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Nihat Kərimli, Şəhanə Ziyad

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 493



## Ət, süd, yumurta, bal...

Bu kənddə pulsuzdur

**Çanaqqalanın Gelibolu bölgəsində dünyaya gələn Nida Əlif Selci ilk və orta təhsilini şəhərdə alıb. Atasının işləri rast gətirməyib və onlar nənələrinin yaşadığı Südlücə kəndinə köçərək heyvandarlıqla məşğul olmağa başlayıblar.**

”Şərq” ”Milliyet.com.tr”yə istinadən bildirir ki, Nidanın ailəsi əvvəlcə xırda buynuzlu heyvanların yetişdirilməsiylə məşğul olub. Heyvanlar üçün yemi babadanqalma ərazidə əkib becəriblər. Nida da məktəbdən qayıtdıqdan sonra vaxtını heyvanlara qulluq etməklə, onları örüşdən gətirməklə keçirib. ”Əvvəllər məktəbə gedərkən ayaqqabılarım palçığa batırdı. Elə bilirdim, tək mənim ayaqqabılarım palçıqlıdır. Bu mənə çox pis təsir edirdi, utanırdım. Sonra fikir verdim ki, yox, o biri uşaqlar da mənim günümdədir. Getdikcə, buna alışdım. Artıq kimsənin söz atmasına fikir vermirdim”, söyləyən Nida kəndlərini çox sevdiyini, tarlada çalışmaqdan heç yorulmadığını deyib. Dərslərinə də çalışıb, imtahan verib və Gelibolu Ecebəy texniki peşə liseyinə daxil olub. Və liseyi tibb bacısı yardımçısı ixtisası üzrə bitirib. Sonra da Açıq təhsil Əskişəhər Anadolu Universitetində laborant və baytarlıq ixtisası üzrə təhsil alıb. Evdə də ailəsinə təsərrüfat işlərində kömək edib. Qonşuların kənar məhəllələrdən süd aldığını görən Nida atasından inək almasını xahiş edib. Beləliklə, həm də südçülüyə başlayıblar. 1 inək 2 olub, qoyunların sayı getdikcə 100-ə çatıb. ”Yoxsulluq içində keçirdiyimiz günləri xatırlayanda ”indi öz-özümə ”çox varlıyıq”, deyirəm. Özümü həqiqətən də çox varlı, zəngin hiss edirəm. Çünki istədiyim yerdəyəm və ürəyim istəyən işlə məşğulam”, söyləyən Nida deyib ki, belə bir həyatın zor olacağını bilirdi, amma ailəyə yardım etmək, kasıblıqdan çıxmaq arzusu onu işləməyə həvəsləndirib.

**Məlahət**

## İstanbulda qanlı pusqu

Evdən çıxan kimi güllələdilər



**İstanbulda işə gedərkən silahla hücuma məruz qalan şəxs həyatını itirib.**

”Şərq” xəbər verir ki, hadisə çərşənbə axşamı, fevralın 20-də saat 08:30 radələrində Güngörenin Gençosman səmtində baş verib. İddiaya görə, Sedat Elalmış səhər işə getmək üçün evdən çıxıb. Yuxarı küçədə onu gözləyən iki nəfər Elalmışı görən kimi ona atəş açmağa başlayıb.

Silahlı hücumdan sonra gənc evinə doğru qaçmağa çalışıb və tapançadan atılan güllələrin hədəfinə çevrilib.

Sedat Elalmış evinin qarşısında yerə yıxılıb, silahlı basqınçılar isə hadisə yerindən qaçıblar.

Silah səslərini eşidən bölgədəki vətəndaşlar vəziyyəti polis və sağlamlıq qruplarına xəbər verib. Qadının yaralanan gəncə görə ağladığı anlar onun mobil telefonunun kamerasına düşüb.

Hadisə yerinə gələn sağlamlıq qrupları yaralı gənci təcili yardımla xəstəxanaya aparıb, Sedat Elalmış xəstəxanada bütün müdaxilələrə baxmayaraq həyatını itirib.

Polis qrupları silahlı təcavüzkarları tutmaq üçün işlərini davam etdirir.

**Turan**

## Amerikalı aktrisa Qəzza aksiyasına görə həbs edilib



**Eyforiya və ”Hunger Games” kimi prodüserlərlə şöhrət qazanan amerikalı aktrisa Hanter Şefer həbs edilib.**

25 yaşlı aktrisa ”Sülh üçün Yəhudi Səsi” və JVP adlı qrupla Qəzza etirazlarında iştirak etdiyi üçün saxlanılıb.

ABŞ Prezidenti Co Baydenin qonaq olduğu ”Late Night with Seth Meyers” tok-şousunun binası önünə toplaşan qrup əllərində pankart, üzlərində maskalarla Qəzzada atəşkəsə çağırıblar.

Təxminən 100 nəfərdən ibarət qrupun Baydenin proqramda iştirakına mane olmaq istədiyi məlum olub.

”Atəşkəs, indi!” yazılmış qara köynək geyinən məşhur amerikalı aktrisa etiraz aksiyası zamanı Qəzzada atəşkəsə çağırış edib. Nyu-York polisi 30 nəferin saxlanıldığını açıqlayıb.

**Turan**

## Fındığın qabığını atmayın!

Canan Karatay faydalarından danışıb



**Fındığın özü qədər qabıqları da faydalıdır.**

Medicina.az xəbər verir ki, Canan Karatayın tövsiyə etdiyi qidalardan biri olan fındığın qabıqları belə şəfalıdır.

Canan Karatay müsahibəsində çay və fındığın insan sağlamlığı üçün çox faydalı olduğunu ifadə edərək ”Şəkər əlavə etmədən çoxlu çay için, fındıq yeyin”, - deyə bildirib. Onun sözlərinə görə, fındıq minerallar, vitaminlər, karbohidratlar və omeqa-3 ilə zəngindir. ”Bundan əlavə, fındığın qabığından hazırlanmış çay da çox vacibdir. Bu çay ən güclü antioksidantları ehtiva edir. Qaraciyər xəstəliklərində və qaraciyər damarlarının açılmasında faydalıdır. Yoğun bağırsaq və uşaqlıq yolunun iltihabına qarşı yaxşı təsir edir. Fındıq qabıqlarının qaynadılıb suyunun içilməsi soyuqdəymə və qripə xeyirlidir; öskürəyi dayandırır; malyariya və epilepsiya zamanı xəstənin halını yaxşılaşdırır. Bu çayın qan təmizləyici təsiri də var. Həmçinin bağırsaq florasını və ya ürək-damar sistemini qorumaq istəyənlər də fındığın qabığından faydalana bilərlər”, - deyə C.Karatay vurğulayıb.

**Çayın hazırlanması:**

Bir ovuc təmizlənmiş fındıq qabığını götürüb qaynayan bir litr suya əlavə edin. Qarışığı on dəqiqə qaynatdıqdan sonra ocaqdan alın və daha on dəqiqə dəmlənməsini gözləyin. Çayı stəkana süzdükdən sonra bal əlavə edə bilərsiniz.



# Həkimlər "15 yaşa qədər yaşamayacaq" dedilər!

## Müəllim ata öz müalicəsi ilə möcüzəyə nail olub

**Türkiyə Gümüşhane bölgəsinin Gözeler kəndində yaşayan təqaüdçü müəllim Yaşar Temel Başer (67) həyatını mukopolisakkaridoz (MPS) xəstəsi olan əlil qızı Nur Hilal Başerə həsr edib.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, Başer MPS xəstəliyi diaqnozundan sonra həkimlərin ”15 yaşına qədər yaşaya bilməyəcək” - dediyi qızı üçün hərəkətə keçib və 2007-ci ildə 25 illik müəllimlik peşəsindən təqaüdə çıxaraq Gözeler kəndində məskunlaşıb.





Qızlarının daha uzun ömür sürməsi üçün mübarizə aparan Yaşar Temel Başer və həyat yoldaşı Rabia Başer əlil qızına öz bağçasında istehsal etdikləri və heyvanlarından əldə etdikləri təbii məhsullarla qızlarını 17 il yedizdirərək, onun bu yaşa qədər yaşamasına şərait yaradıblar. Təbii məhsulların və təmiz kənd havasının qızının uzun ömür sürməsində çox təsirli olduğunu deyən Rabia Başer (67), qızlarının qayğısına heç vaxt laqeyd qalmadıqlarını bildirib.

**Yaşar Temel Başer qızının uzun ömür sürməsində yeməklə yanaşı, kəndin təmiz havası və suyunun da təsirli olduğunu ifadə edib:** ”Erkən pensiyaya çıxmağımın ən böyük səbəbi xəstə olan qızımdır. Qızım daha uzun və sağlam yaşasın deyə təqaüdə çıxıb kəndə gəlməyi seçdim. Kənddə qızımıza təbii və sağlam qidalar və heyvan mənşəli qidalar veririk. Təmiz hava və suya sahib olmaq da sağlam olmaqda təsirlidir. Qızımı Çapa Tibb Fakültəsinə apardım. Burada aparılan sınaqlar və müalicələr nəticə vermədi. Oradakı həkimlər də xəstənin bu xəstəliklə çox yaşamayacağını bildirdilər. Artıq müalicə olmadığı üçün qızımı da götürüb Gümüşhaneyə gəlib, təqaüdə çıxdım. Çox işə yaradı, xırda problemlərdən başqa indiyə qədər heç bir problemimiz olmayıb. Mən özümü tamamilə uşağıma həsr etmişəm”.

**Qızlarının yeməyinə, təmizlik işlərinə diqqət etdiklərini deyən ana Rabia Başer:** ”Uşağımıza hər gün baxırıq, həm yeməyinə, həm də təmizlik işlərini görürük. Çapa Tibb Fakültəsinin professorları dedilər ki, uzağı, 15 yaşına kimi yaşayacaq. Şükür Allaha, belə olmadı”.

**Turan**





# 2 aylıq ayrılıq

## Şahzadəni Ket Midltona geri qaytaran amil qısqanclıq olub

**Ket Midlton bir dəfə çox cazibəli libas geyinərək şəhərə çıxıb, şahzadə sevdiyi xanımın başqa birisiylə münasibətdə ola biləcəyinə dözməyəcəyini anlayıb.**



Böyük Britaniya kral ailəsinin sevilən cütlüyü - şahzadə Uilyam və həyat yoldaşı, şahzadə Ket Midlton 2001-ci ildə, Müqəddəs ”Andrews” Universitetində təhsil alarkən tanış olublar. 2002-ci ildə universitetdə təşkil olunan moda nümayişi zamanı Ket Midltonun ağ tül parçadan geyindiyi libas şahzadə Uilyamda romantik hisslər oyadıb və onların arasında sevgi münasibətləri yaranıb. Aralarındakı sevgi münasibətlərini isə onlar 2 il sonra elan ediblər. 2007-ci ildə isə münasibətlərində durğunluq yaranıb və onlar ayrılıblar. Ayrılığın səbəbi kimi isə gələcək həyatlarını fərqli şəkildə görmələri olub. Lakin bu ayrılıq cəmi 2 ay çəkib. Cəmi 2 aylıq ayrılıqdan sonra şahzadə Uilyamla Ket Midlton yenidən barışıblar və münasibətləri davam edib. 2011-ci ildə isə şahzadə Ketə evlilik təklif edib. Onların hazırda 3 övladı var. Kral ailəsinin şəxsi yazarı Penni Cunior bu günlərdə şahzadə Uilyamla Ket Midltonun münasibətləri haqqında yazıb. Onun sözlərinə görə, başlanğıcda şahzadə Ket Midltona çox bağlanacağından ehtiyat edib. Ket isə digər tələbə yoldaşlarından fərqli olaraq dərslərinə çox çalışıb və şahzadənin ətrafında dolaşanlardan da xoşu gəlməyib. Ket makiyaj etməyi də sevməyib. Həmişə sadə görünüb. Lakin Ketin məhz gözəgəlim olmaması, necə deyərlər, özünü yerli-yersiz ortaya atmamamsı şahzadə Uilyamı cəlb edib. Çünki Ket digər tələbə qızlar kimi kral ailəsi üzvünə yaxınlaşmaq üçün cəhdlər etməyib. Şahzadə hər nə qədər tələbə yoldaşlarıyla dostluq etsə də, aşırı diqqət görməyi sevməyən biridir. Ket də sakit təbiətli olduğundan ondan xoşu gəlib. Ket özünə yüksək dəyər verən biridir. Şahzadə ilə münasibətləri başladıqdan sonra kimsə ona ”şahzadə ilə sevgili olduğun üçün şanslısan”, dedikdə, o, əsəbi halda ”xeyr, o, mənimlə sevgili olduğu üçün şanslıdır”, cavabını verirdi. Şahzadənin dostlarının Keti bəyəndiyini söyləmək olmaz. Onlar Keti çox ciddi hesab edirdilər və bu, onların xoşuna gəlmirdi. Yazarın qeyd etdiyinə görə, 2 aylıq ayrılıqdan sonra şahzadəni Ket Midltona geri qaytaran amil qısqanclıq olub. Ket Midlton bir dəfə çox cazibəli libas geyinərək şəhərə çıxıb, şahzadə sevdiyi xanımın başqa birisiylə münasibətdə ola biləcəyinə dözməyəcəyini anlayıb. Lakin Ketə evlilik təklifinin bir qədər uzun müddət çəkməsinin səbəbi anası Diananın ailə həyatında xoşbəxt olmaması idi. Şahzadə atasının gələcək həyat yoldaşını tanımadan evlənməsini düzgün hesab etmirdi və hesab edirdi ki, onların münasibətləri buna görə uzunömürlü olmayıb. Bu məntiqlə də şahzadə həyat yoldaşı olaraq seçəcəyi xanımla bir-birilərini yaxından tanımalarını istəyirdi. Ona görə də münasibətlərində əminlik olduqdan sonra Ket Midltona evlilik təklif edib.

**Məlahət**

## Mütəxəssislərdən xəbərdarlıq

Yayda temperatur rekordları qırılacaq



*Mart ayında soyuqla qarşılaşsaq, bu, meyvə istehsalının azalmasına səbəb olacaq*

**Okeanlarda dəniz temperaturu yüksəlməyə davam edir.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, Bakırçay Universiteti Coğrafiya şöbəsinin müdiri professor Şermin Tağıl artan iqlim dəyişikliyinin təsirlərinin gündəlik həyatda daha çox hiss olunmağa başladığını bildirib.

Dəniz suyunun istiliyinin yay aylarından bəri orta səviyyədən aşağı düşmədiyini bildirən Tağıl deyib: ”Bu il dəniz suyunun temperaturu avqust ayında 21,1 dərəcə Selsi ilə uzunmüddətli rekord qırıb. Yaydan bəri dəniz səthinin suyu soyumadan həmişə orta səviyyədən yuxarı qalxıb. Keçən ilin yanvarında bütün okeanlar 21,1 dərəcə Selsi ilə avqust rekorduna bərabər olub. Fevral ayında dəniz səthinin suyunun temperaturu həmişə orta səviyyədən yüksək olub, 21,1 dərəcə Selsi. Yerüstü temperaturun yüksək olduğunu görürük. Belə davam edərsə, iyul və avqust aylarında daha da yüksək dəniz suyunun temperaturu ilə qarşılaşacağıq. Keçən il El Nino ili, səthin temperaturunun artması ilə nəticələndi. El Nino yanvar ayında kəsildi, indi La Ninaya doğru keçid var, ancaq biz hələ də okean sularının niyə orta səviyyədən yüksək olduğunu dəqiq deyə bilmərik”.

Paris İqlim Müqaviləsi ilə qlobal orta səth istiliyində artımı 2 dərəcə ilə məhdudlaşdırmaq və mümkünsə 1,5 dərəcə altında saxlamaq məqsədi daşıdığını xatırladan Şermin Tağıl, 1 dərəcə belə temperaturun böyük risklərə səbəb ola biləcəyini qeyd edib.

Dəniz səthinin temperaturunun limit həddinə çatmaq üzrə olduğunu vurğulayan Tağıl, ”Belə davam edərsə, həm dəniz səthinin istiliyinin, həm də yaz aylarında quru temperaturunun Paris razılaşmasında nəzərdə tutulan 1,5 dərəcə Selsi temperatur dəyərini keçəcəyi ehtimalı var. Söhbət rekordlardan gedir, lakin təbii ki, uzunmüddətli proqnozlarda səhvlər ola bilər. Bu, mümkündür. Mövcud vəziyyət və qış boyu müşahidə etdiyimiz okean temperaturu bizə göstərir ki, 2024-cü ilin yayında biz bu sahədə rekordlarla qarşılaşa bilərik” - qiymətləndirməsini edib.

Bu cür yüksək dəniz səthi temperaturlarının quru səthlərinə də təsir etdiyini, eyni zamanda dərin okean və dəniz sularının istiləşməsinə səbəb olduğunu izah edən Tağıl, okeanlarda temperaturun artmasının dəniz ekosistemləri üzərində mənfi təsirlərə səbəb olduğunu bildirib.

Türkiyədə qış mövsümündə temperaturun orta səviyyədən yüksək olduğunu xatırladan Tağıl, 2020-ci ilə qədər 2,9 dərəcə olan yanvar ayında orta temperaturun 2024-cü ildə 5 dərəcəyə yüksəldiyini bildirib.

**Temperaturun artmasının bitkilərə çox ciddi təsir etdiyini bildirən Tağıl:**

”Bitkilərin soyuma dediyimiz bir dövrü var. Yəni müəyyən bir yuxusuzluq dövrü keçirməlidirlər, amma təəssüf ki, bu il orta səviyyədən yüksək temperaturun yaşanması bitkilər üçün bu soyutma dövrünü kəsdi. Meyvə ağaclarının çiçək açdığını görürük. Mart ayında soyuqla qarşılaşsaq, bu, meyvə istehsalının azalmasına səbəb ola bilər”.

Türkiyədə 2 ildir ”qar quraqlığı” olduğunu xatırladan Tağıl bu vəziyyətin bəndlərdəki suyun səviyyəsinin azalmasına səbəb olacağını sözlərinə əlavə edib.

**Turan**